Rizvan İsmayıl

# Elmi-kəlam qapısı

Tbilisi 2018

Redaktor:
***İbrahimxəlil***

Rəssam:
***Rizvan İsmayıl***

Texniki redaktor:
***Əkrəm Qəhrəmanov***

*Məşhur rəssam kimi tanıdığımız Rizvan İsmayıl həm də istedadlı qələm sahibidir. Sayca ikinci şeirlər kitabı olan bu topluya müəllifin son illərdə “yazmaqla bəndə saldığı”(ifadə Həzrəti-Peyğəmbərə (s) məxsusdur) və “fəzilətinin dəlili” (Həzrət Əlinin (ə) sözləridir) olan yazıları daxil edilib. Müqəddəs kitabımız Quranı, Onun nurunu rəhbər tutan Hacı Rizvan İsmayıl həm də qədim və müasir poeziyamızın poetik düşüncələrinin həmişə təzə-tər olan təcrübəsinə söykənir.*

*“Elmi-kəlam qapı”sı hamıya açıqdır və kitabın qədirbilən oxucular tərəfindən rəğbətlə qarşılanacığına inanırıq!*



Rizvan İsmayılın numerologi portreti

# Qovuşduq "cənnəti-rizvanə..."

Dahilərdən biri deyib ki, rəssamlıq – səssiz poeziyadır, poeziya isə səsli rəssamlıqdır. Əlbəttə, lirikanın yunanca "lira"sözündən olmağından tutmuş liranın da simli musiqi alətinin adı olduğuna qədər poeziyasevərlərə yaxşı tanışdır. Burası da var ki, bizdə lirik şeirlərə bir zamanlar rübabi şeirlər də deyilib: bunun da bir uzlaşma ucu yenə də gedib simli musiqi aləti olan rübaba çıxır.

Yəni bu həm də "səsli rəssamlıq" anlamını verən poeziyada əbədi qeydiyyatda olan hissi, həyəcanı, sevinci, kədəri, arzunu və ümidi təkcə qımqımada, musiqidə səsləndirmək insana azlıq etdi, o, bunu həm də misralara, bəndlərə köçürdü, bu da azlıq edəndə hissin, həyəcanın, fikrin, duyğunun "şəkli"ni də çəkdi.

Hacı Rizvan İsmayılın tanınmış rəssam olmağından dolayı, bir də bir gözəl şairliyi, bir gözəl şair tərəfi də var və işdi-şayəd, əgər günün birində eşitsəniz ki, Rizvan həm də musiqi bəstələyir, onda zərrəcə təəccüblənib eləməyin: çünki Rizvanın təsviri sənət, ədəbiyyat və musiqi tərəfləri elə qovuşub, elə vəhdət yaradıb!

Onun indiyədək “Borçalı qəlbimdir, eşqim Əhli-beyt” adlı şeirlər kitabı (ön sözün müəllifi – Əli Abbas, redaktoru – Nizami Məmmədzadə) nəşr edilib. Onda Hacı Rizvan İsmayıl (o vaxtlar İsmayılzadə) həm də “Əhli-beyt” dərgisinin redaktoru idi. Kitab maraqla qarşılandı. Çünki oxucular Hacı Rizvanı həm də tanınmış ilahiyyatçı və novator rəssam kimi tanıyırdılar.

“Əhli-beyt” dərgisi ilə bağlı öz aləmimdə bunları da rəsmxət və hüsnxət olaraq önə çıxarmaq istəyirəm ki, bu dərgi Hacı Rizvanın redaktorluğu ilə adının canında təkcə Həzrəti-Peyğəmbərin (s) nəslini, ailə üzvlərini, imamları deyil, həm də əhli-bəsirəti (zəkalı), əhli-didarı (ziyarət edən), əhli-sevdanı (aşiq), əhli-ədaləti (ədalətli), əhli-ürfanı (ziyalı) çatdırmağa, canlandırmağa çalışırdı və onun bu gün növbəti kitabına “Elmi-kəlam qapısı” adını verməyi də qətiyyən təsadüfi deyil. Çünki nəticə etibarı olaraq hamıya açıq olan məntiq və hikmət dolu elmi-kəlam qapısından heç olmasa bircə dəfə keçməyənə yazıqlar!..

Rizvana görə, ədəbiyyat (varlıq) heç zaman ədəmiyyət (yoxluq) olmayıb və olmayacaq da!

Yeri gəlmişkən, bu kitaba daxil edilən yazıların hamısı müəllifin yeni yazılarıdır. Açığı, biz ona həsr etdiyimiz və bu günlərdə işıq üzü görmüş “Zərrədən Günəşə” adlı kitabımızı hazırlayarkən Rizvanın növbəti kitabı gündəmdə yox idi. Təsadüfən onun “Fatimənin gülləri” adlı ədəbi səmimiyyət baxımından möhtəşəm hekayəsini oxudum və etiraf edim ki, heyrətimi gizləyə bilmədim! Əbəs yerə demirlər ki, Allah verəndə quru yerdə də verir!

O, arada-sırada “nicat gəmisi” bildiyi yazılarının bəzilərini “mənsur şeir” adlandırıb, zənnimcə, bu gözəl mətnlər mənsur şeir olaraq özlərində böyük fəlsəfi yük daşıyırlar, deməli, həm də oxunaqlı fəlsəfi esselərdir. Bizdə – Sınıq körpünün bəri üzünü nəzərdə tuturam – mənsur şeir janrına aid ədəbi nümunələr çox azdır. Şəxsən mən, həm də bu sahədə ustad sayılan unudulmaz Azərbaycan yazıçısı Gülhüseyn Hüseynoğlunun ədəbi irsinə hörmət mənasında, çox arzulayırdım ki, bu sahədə bizdən də bir tutarlı imzası olan tapılsın! Və bu ədəbi çatışmazlığı qaldırdığına görə Rizvanı alqışlayırıq! Hələ birinci kitabında Rizvan belə yazmışdı:

*Düzə əyri demə, pisə də yaxşı,*
*Xalı bahalaşmaz – çoxsa naxışı,*
*Salma şoranlığa kotanı, xışı,*
*Məhsul zay olanda dəyər də düşər.*

Rizvan İsmayıl "kotan"ını bu "əkin"ə hədər yerə salmayıb, çünki o, öz qələm qolları ilə təkcə doğma kəndi Zol-Güvəci, Borçalını, Tiflisi qucmur, o, şair və rəssam, müxtəsəri, tanınmış sənətkar olaraq cəmi-cahanın qayğıları ilə nəfəs alır, bütün dünya üçün narahatdır! O yazır:

*...Azadlıq dərsi qiyabilik sevməz, əyanidir, canlıdır* ("Qartal yuvası").

*...mən öz Günəşimi çəkəcəm, kim itirdiyi günəşi tapmaq istəyirsə, dəvət edəcəm, gəlsin mənim tablomun qarşısına* ("Qaytarın mənə Günəşimi").

*...bəzən yumruq – bir dünya məna; bəzən dünyada bir yumruğun mənası yox;*

*...dünya – bəzilərinə isti-cırcıramada sərin qarpız, bəzilərinə məğlubiyyətdə dəymiş ağır və yumru toppuz* ("Dünya").

*...mən palitrama baxıram; orada haqqın rəngini, ədalətin çalarını, sevginin harmoniyasını axtarıram* ("Lal"ın dilini anlayanı axtarıram").

*...məni qaraltmayın – qaram üzünüzə çıxar* ("Ürək").

*...tövbə darağıyla çoxdandır daranmır başım* ("Tövbədən qabaq").

Rizvan yaxşı bilir ki, harada həyat (gözəllik) varsa, orada poeziya var. Amma Rizvanın, yuxarıda da dediyim kimi, bir qüdrətli dayaq – nur, şükr, həmd tərəfi var ki, rəsm əsərlərində olduğutək, şeirlərinin də baş xəttinə çevrilir. İslam müqəddəslərinə ünvanlanmış şeirlərində də, müxtəlif məzmunlu miniatürlərində də, "qovuşdun cənnəti-rizvanə" ideyalı qəzəllərində də Yaradana, Onun dərgahına yaxın yaşayır. Bilir ki, bədii sözdən üstün ibadət, şair qədər ibadətə aşiq olan... arazbarı az tapılır...

Hacı Rizvan İsmayılın narahat şair dünyasında dünya "axirətin əkin sahəsi" olmaqla yanaşı, həm də gözəlliklə, bədii-ürfan sözlə, ədəbi, təsviri üslublarla tərbiyə yoludur. O, dünyaya aldığı nəfəslərin sayı kimi baxır. Həm də o, nəfəsini adi adamlartək təkcə tənəffüs üzvləri – ağzı, burnu, ciyərləri, qulaqları ilə deyil, həm də fırçası və qələmi ilə alır...

Həzrəti-Peyğəmbərimizə (s) ülvi məhəbbətlə *"Tanrının ən kamil qərarı Sənsən"* deyir, öz iç

dünyasına-batininə xitabən *“Rizvan, sağlığında qul ol anaya”* əmrini verir, rəzil şeytan barəsində *“Möminlər var – əməliylə şeytanı ağlatdılar”* razılığını hörmətli oxucularla bölüşür.

Burasını da buyurum ki, ona indiyədək rəssamlıqda da, ədəbiyyatda da “Yolun açıq olsun” deyənlər çox olub. Bəlkə elə həm də bu sərhesab səbəbdən onu bitib-qurtarmayan yolların sonunda həmişə açıq qapılar gözləyib.

Bu gün sizi öz “Elmi-kəlam qapısı”na ülfət və ümidlə dəvət edən Hacı Rizvan İsmayıla yeni-yeni yaradıcılıq uğurları və üfüqləri arzulayırıq!

Buyurun, onun yeni nurlu-nemətli naxışlar vurduğu elmi-kəlam qapısını könül xoşluğuyla açın! Zira, bu qapılar qətiyyən qıfıl tanımır!

**İbrahimxəlil**

# Nuruna qurban

## SƏNSİZ

Sənə salam olsun, ya Rəsulallah,
Olmayaqköməksiz tufanda Sənsiz!
Hər vaxt qanadını sər üstümüzə,
Qalmayaq tək-tənha bir an da Sənsiz.

Aləmə öndərsən, birinci xilqət,
Mənəvi məqamda, ən uca xislət,
Səni böyük bildi yerdə hər millət,
Ölüdür hər diri insan da Sənsiz.

İslam azanının şüarı Sənsən,
Düzlüyün ölçüsü, meyarı Sənsən,
Tanrının ən kamil qərarı Sənsən,
Dinib-danışarmı Quran da Sənsiz?!

Haqqın elçisisən, kamil bələdçi,
Azar – əl tutmasan müsafir, yolçu,
Ədlin bazarında ən dürüst ölçü,
Sənsən! Bimənadır irfan da Sənsiz.

Əli ağlayarkən susdu əlində,
Özün böyütmüsən isti əlində,
Sənə həm qardaşdı, əldi-əlində,
Nə çəkdi ol Şahi-Mərdan da Sənsiz.

Adəm təvəssüllə Səndən yapışdı,

Yunis qaranlıqda Sənlə qonuşdu,
Yaqub Yusifinə Sənlə qovuşdu,
Hikmət qazanmazdı Loğman da Sənsiz.

Kövsər bulağında saqi olmasan,
Başımız üstündə baqi qalmasan,
Qəlblərə eşqinlə ta ki, dolmasan,
Zindandı Cənnəti-Rizvan da Sənsiz.

“Ana” dözə bilməz “Ata”sı ölsə,
Dilində ən həzin nidası ölsə,
Ümmətin işığı, çırağı sönsə,
Tab etməz dərdinə Zəhran da Sənsiz.

Yüz il milyon rükət namaz da qılsam,
Min sınan ürəyə məlhəm də olsam,
İsmin çəkiləndə salam deməsəm,
Gəlməz bu ürəyə iman da Sənsiz.

Söhbətin əvvəli, ortası, sonu,
Səni yad etməkdi – bilmişəm bunu,
Bir Səni itirsəm neynərəm mini,
Fəqirdi taxtında sultan da Sənsiz.

Əxlaq-rəftarına olmuşam heyran,
Sənin itrətinə, nuruna qurban,
Qədrini bilməyən sayılmaz insan,
Heç sayar özünü Rizvan da Sənsiz.

7 iyun 2007

# BAŞ ƏY

Həqiqət arayan, əziz qardaşım,
İbadət etməyə, Rəbbinə baş əy!
Uca Yaradanın yoxdu şəriki,
Qayıt dərgahına, əmrinə baş əy!

Hər şeydən Əvvəl də, Axır da Odur,
Yoxdan var eyləyən Mahir də Odur,
Hər kəsə yardımçı, Nasir də Odur,
Hökmünə, misilsiz gücünə baş əy!

Göylərin, yerlərin sahibidir bil,
Onun qüdrətilə dodaq açır gül,
Torpaqdan xəlq olan adəmi-aqil,
Tanrı camalına, hüsnünə baş əy!

Ürəkdən "bağışla" – desən əfv edər,
Günahın dünyadan böyüksə, keçər,
Sadiq bəndə olsan səni dost seçər,
Aləmi çulğayan rəhminə baş əy!

Səhvinə pərdədir, eybinə Səttar,
Könlünə qəmxardır, zənbinə Qəffar,
Gecə-gündüzünə mərhəmətli yar,
Hikmət sultanının helminə baş əy!

Sübbuhdu, Quddusdu, Hazırdı, Nazir,
Gizlin də, Zahir də Onunçün birdir,
Daim yanındadır eşidir, bilir,
Səmiyyi-Bəsirin isminə baş əy!

Ürəkdə imanın dövlətdir, vardır,
Fitrətdən qaçan kəs zəlildir, xardır.
Hayana üz tutsan qarşında Odur,
Ədəblə təzim et, ərzinə baş əy!



# RƏSULİ-ƏKRƏMƏ (S) XİTABƏN

Tanrı dərgahının səma elçisi,
Ədalət carçısı, mizan ölçüsü,
Əxlaq nümunəsi, ədəb ülgüsü,
İsmət göylərinin şəmsinə qurban!

Nəbilər ağası, Rəsulu tanı,
Əşrəfi-məxluqat, əşrəf insanı,
Varlıq – hörmətinə yaradılanı,
Sevib canı eylə elminə qurban!

Mürsələ, Nəbiyə bir tac Məhəmməd!
Zülmətə bir şimşək, sirac Məhəmməd!
Davasız dərdlərə əlac Məhəmməd!
Nicata səsləyən dilinə qurban!

Əmindi, Raufdu, Əhməddi ağam,
Aləmə rəhmətdi, şəfqətdi ağam,
Ümmətə canını əritdi ağam,
Qeyrətdən yonulmuş cisminə qurban!

Hikmət çeşməsindən çağladı Quran,
Mərhəba sözünə! Nə gözəl bəyan,
Göydə mələklər də nitqinə heyran,
Bəşər ustadının eşqinə qurban!

Tayı-bərabəri yoxdur bir insan,
Dünya iqrar etdi, buna hər zaman,
Vəsfinə söz açdı İncillə Fürqan,
Tövratdan parlayan nuruna qurban!

“Taha”dır, “Yasin”dir, Həbibdir yara,
Cümlə mərəzlərə ondadır çara,
Məhşərdə əməllər atanda nara,
Alovdan çıxaran əlinə qurban!

Seyidlərin cəddi, sevimli şahın,
Göydə bədrlənmiş qəmərin, mahın,
On iki övladı qütbü-pənahın,
Dünyalardan böyük qəlbinə qurban!

# HAQQ YOLU ƏLİNİN (Ə) İZİNDƏ AXTAR!

Təqva nişanını, iman nurunu,
Əlinin haqq olan sözündə axtar!
Tövbənin səsini, eşqin özünü,
Əlinin yaşarmış gözündə axtar!

Kövsər sularının saf bulağını,
Rəsul vücudunun sağ budağını,
Səcdə, ibadətin iz-sorağını,
Əlinin üzünün tozunda axtar!

Zöhddə tapmazsan onun tayını,
Namazda ucalan hay-harayını,
Halalın-haramın doğru sayını,
Əlinin nanında, duzunda axtar!

Pul ilə düzləri əyənlər çoxdur,
Məzlumun haqqını yeyənlər çoxdur,
"Mən düzəm, yolum düz" – deyənlər çoxdur,
Düzlüyü Əlinin düzündə axtar!
Haqq yolu Əlinin izində axtar!

27.06.2008


110
"Ədalətin
özü"
Rizvan

## “BA” HƏRFİNİN NÖQTƏSİNDƏN ÖP

Quranın qəlbidir “Yasin” surəsi,
Qaldır ol Quranın ürəyindən öp.
“Ayətəl-Kürsü”nü eylə qiraət,
Fürqanın bu dayaq-kürəyindən öp.

Rüküda üzüyü bəxş edən əldən,
Torpaqda əşkindən düzəlmiş göldən,
Mətin qədəmiylə iz salmış yoldan,
Mərhəbi tən bölən biləyindən öp.

Kufədə bir səhər qurşaq ilişdi,
Qazlar əbasından möhkəm yapışdı,
Zəhərli bir qılınc qana bulaşdı,
Əyil yaralının xərəyindən öp.

Quru arpa nanı sınmır əlində,
Amma Zülfiqarı dinir belində,
Gəl, bax haqq gücünə onun qolunda,
Süfrədə duzundan, çörəyindən öp.

Zəhrası öləndən qəribdi evi,
Belə dərd olarmı ruhi, mənəvi,

Yatıb Həsəneyni ilahi sərvi,
Gəl, qoşa mələyin beşiyindən öp.

Quranın məzmunu Bəsmələdədir,
Bəsmələ Bismillah sözündə bitir,
Bismillah məzmunu “Ba” da gizlənir,
“Ba”nın  nöqtəsi var, o da Əlidir.
Diz çök “Ba” hərfinin nöqtəsindən öp!

04.06.07

# O KİMDİR?

Aləmlərin ləngəri kimdir?
Mənanın cövhəri kimdir?
Möminlərin sərvəri kimdir?
Döyüşlərin sərdarı kimdir?
Vilayətin şahənşahı kimdir?
Məzlumların pənahı kimdir?
Zülmət gecənin sabahı kimdir?
Mustəfanın bədri-mahı kimdir?
Adına fəda olsun canlarımız!
Allahın vuran əli Odur!
Dərgahın sadiq qulu Odur!
Haqqın müstəqim yolu Odur!
Tanrının danışan dili Odur!
Göz yaşıyla isladan gili Odur!
İmamətin sütunu-beli Odur!
Xilafətin çərx-mili Odur!
Yolunda axar olsun qanlarımız!

Səxavətin sultanı kimdir?
Haqqın oyaq didəbanı kimdir?
Tanı, Şahi-Mərdanı kimdir!
Xaliqin Ən böyük imtahanı,
Öz qatilini əfv edəni tanı kimdir!

Ən ismətli xanımın yoldaşı,
Ən qeyrətli qızın atası,
Ən igid oğulların babası,
Hikmət, mərifət dəryası,
Qolları qələmin nidası,
Sübhanın mərhəmət sədası,
Eşq əhlinin piri, qayəsi,
Rəhmanın mərhəmət sayəsi,
Yetimlərin həmdəmi, yiyəsi,
İrfanın mənası, mayəsi,
Kimdir bu pak insan, ey dost?
Tanı, qəlbdən ona bağlan, ey dost?
Zikriylə dolsun ömür anlarımız!

Müşküllərin həllalı kimdir?
İslamın cahı-cəlalı kimdir?
Göylərin yolunu yerdən yaxşı bilən,
Xalq güləndə ağlayıb, ağlayanda gülən,
Peyğəmbərin yatağında yatan,
Zülfiqarı dəstində tutan,
Meysəmin yerində xurma satan,
Günü günortadan qaytaran,
Kumeyli tarixə yazan,
Həmmamı haqqə qovuşduran,
Kimdir bu şahi bəlağət, ey dost?

Ariflərin ustadı kimdir?
Cüt əmanətin qanadı kimdir?
Fəzilətin bünyadı kimdir?
Kimdir O kəs ki, Tanrıdan aşağı,
Bəndələrdən yuxarı gəlir sorağı,
Səlmanı Səlman edən Odur!
Əbuzəri Rəbəzəyə gedən Odur!
Əmmarı şəhid olan Odur!
Maliki zəhərlənən Odur!
Qol-qanadı kəsilən Odur!
Kimdir o qanadı sınıq qartal?

Quranın katibi Odur, O!
Minbərin xətibi Odur, O!
Şeirin xaqanı Odur, O!
"La fəta" cavanı Odur, O!
Mərhəbi tən bölən Odur!
Əmri atdan salan Odur!
Vəliyyullahil-əzəm Odur!
Babi-Mədinə Odur, O!
Şahi insi-əcinnə Odur, O!
Ən kamil xəttat Odur, O!
Sərgərdanlara nicat Odur, O!
Onunla kamil olar din-imanlarımız!

Adəmə həmdəm kimdir?
Nuha edən yardım kimdir?
İbrahimə həmraz olan kimdir?
Yunisə munis olan kimdir?
Musaya Harun olan kimdir?
İsaya nəfəs olan kimdir?
Kimdir bu sirri-Xuda kimdir?
Canlarımız ona fəda kimdir?

Haqqı əlindən alınan Odur!
“Qədir”i unudulan Odur!
Əvvəlinci məzlum Odur!
Qoluna bənd vurulan Odur!
Evinin qapısı yandırılan,
Zəhrası mismardan inləyən,
Möhsini vaxtsız dünyaya gələn,
Yarının qəbri gizli qalan,
O gözləri ağlar qalan kimdir?
O gözləri ağlar qoyan kimdir?
Dörd yetimlə tək qalan Odur!
Canlara atəş salan Odur!
Zəhərdən ciyəri doğrananın,
Susuz səhrada oxlananın,
Boğazında ox çırpınanın
Başsız, çalada qalanın,

Zülmə düçar olanın atası
Mövlası, ağası kimdir?

Ədalət tərəzisi Odur!
Qasimi behişti-nar Odur!
Rükuda zəkat verən Odur!
Namazda ayağından oxu
Çəksələr, duymayan Odur!
Tabutunu özü götürən Odur!
Nəfsinin əsiri olanın
Düşməni, qənimi Odur!
Dərdini quyuya söyləyən,
O tənha qərib kimdir, kim?
Gözləri yolda qoyanın,
Sonuncu əmanətin babası,
Sonuncu ulduzu qeybə gedən,
Dərdi dünyadan böyük kimdir?
Söylə, İsmi-Şərifi nədir?
Kəbədə dünyayə gələn Odur!
Məsciddə zərbətlənən Odur!
"Fuztu və Rəbbil-Kəbə" deyib
Səslənən qəhrəman Odur!
O gündən eşqini qəlbində,
Saxlayan kəsləri yandıran,
Günbəgün alovlandıran Odur!

Tanı o şahı, kimdir?
Ey azğınları imam sayanlar,
İmam da, Mövla da Odur, O!
Peyğəmbərin əziz vəsisi,
Canişin qardaşı Odur, O!
And olsun Allahın izzətinə,
Allahın dostu da Odur, O!
Səslənirəm bütün aləmə,
Qoy eşitsin insü-əcinnə:
Şiri-Qəzənfər Odur, O!
Heydəri-Kərrar Odur, O!
Həzrəti Əbu Talibin oğlu,
Əmirəl-möminin Əlidir
Əlidir, Əlidir, Əlidir, O!
Əlidir, Əlidir, Əlidir, O!..

# ƏLİ (Ə)

Şərəfdə kim ona taydır, nəzər salsan bu dünyayə,
İsayə nəsib olmadı təvəllüd olsun Əqsayə,
Mərhəba nidası gəldi göylərdən Şahi-Valayə,
Kəbəni nurə qərq etdi, səmadən endi ol ayə.

Əli can, can Əli,
Şahi-Mərdan Əli. (2 dəfə)
Zində Quran Əli,
Sənə qurban, Əli! (2 dəfə)

Rəsulun qardaşıdı, ümməti-İslamın atası,
Aləmlər-xatunu Zəhrayi-Əthərin can sevdası,
Söylə, ey dil, kimin var Əli kimi şahı, Mövlası! –
Xaliqə bişumar şükr et ki, olduq tabe Əliyə.

Əsədullahi də Odur, ol Yədullahidə Odur,
Məhşərin Qasimi Odur, ol Eynullahidə Odur,
Sirati-mustəqim Odur, Vəliyyullahidə Odur,
Ürəkdə imanın olsa, agah oldun bu mənayə.

La fəta illa Əlidir, la seyfə illə Zülfiqar,
İmamətin ibtidası, Əlidir hər sirrə açar,
Həqiqət ləşkərinə oldu şahim sultani-sərdar,
Hacı, “Ya Əli!” söylə, salsın ol şah üstünə sayə.

# HƏZRƏT ƏBU TALİB AĞA

Xaliqin lütfünə bax, Məkkəyə üz döndərərək,
Düşüncə karvanını, bir neçə əsr öncəyə çək,
Xəlilullah əliylə əkildi bu şəcəri-pak,
Həzrəti İsmailin nəslinə zər gəlib ağa!
Həqiqət mülkünə bir dərdi Əbu Talib ağa!

Bəşər müşkülə düşsə, açarı Tanrıda axtar,
Kəbənin mənasını Haşim övladında axtar,
Haqqı Əbdül-Müttəlib, doğru, pak soyunda axtar,
Qeyrəti, səxavəti bu ocaqdan alıb ağa!
Məzluma, yetimlərə yardı Əbu Talib ağa!

Qureyşdən bir çoxları Allaha şərik qoşdular,
Hər günaha mürtəkib, haramda həddi aşdılar,
Bütlərə səcdə edib, ümmül-xəbais içdilər,
Bu azğın qövm içində, hənif-iman qalıb ağa!
Tövhidə ürəyini verdi Əbu Talib ağa!

Gündüzün Günəşi var, Gecələrin Qəməri var[1],
Müsəlman ümmətinin bir qapısı, şəhəri var,

---

[1] Bu cümlədə günəş – Peyğəmbərdir, o dünyasını tərk edəndə, yəni gecə olanda yerinə onun nurunu kəsb etmiş qəmər gəlir.

Mənəvi dünyasında iki elə gövhəri var,
Əhmədlə Mürtəzayə müdrik – ata olub ağa,
Zirvədə fərzanədir, pirdi Əbu Talib ağa!

Əhmədin nübuvvəti olundu aşikar ona,
Şam səfərində rahib göstərdi qeybi nişanə,
Son nəbiyə şəhadət söyləyən ismi-İmranə,
Salam olsun! Allaha daim səcdə qılıb ağa,
Cahil! Hərzə söyləmə, ərdi Əbu Talib ağa!

Əşrəful-ənbiyanın sevdasıdır Əbu Talib,
Kəbədə doğulanın atasıdır Əbu Talib,
Behiştin Təyyarının mövlasıdır Əbu Talib,
Allahın fəzlinə bax nə zirvəyə çatıb ağa,
Aləmə işıq salıb, nurdu Əbu Talib ağa!

Mövludun mübarəkdir, ey zirvələrin bəyazı,
Evinə gəlin oldu Zəhra, peyğəmbərin qızı,
Nəvələrin Həsəneyn haqqın bir cüt görən gözü,
Hacı, şükür Xudayə, gör nə dövlət tapıb ağa,
Şərəfdə yeganədir, dürdü Əbu Talib ağa!

4 avqust 2007

## ƏLİDİR (Ə)

Öz vəfa-əhdinə sadiq olana,
Məhşərdə şəfi də, yar da Əlidir!
Dünya axirətin şahı, sərvəri,
Qasimi behişti-nar da Əlidir!

Dilinin zikriydi Allahü-əkbər,
Öyüd-nəsihəti dünyalar qədər,
Bircə nərəsinə diz çökdü Xeybər,
Əhmədə dayaq da, yar da Əlidir!

Zikri-ibadətdə Rəsula nişan,
Onda görülmədi nə bəd, nə yalan,
Az oldu haqqını dərk edib qanan,
Nakəsin gözünə xar da Əlidir!

Məzlumun haqqını alıb yetirdi,
Yetim çöhrəsinə sevinc gətirdi,
Dini yaşatmağa ömrünü verdi,
Ümmətə dövlət də, var da Əlidir!

Bir nur xəlq olundu, oldu nur dağı,
Elmi-lədunninin mədən yatağı,

Göyün son qatından gəldi sorağı,
Ən uca zirvədə qar da Əlidir!

Xətmi-mərtəbətə dayaqdı, qoldu,
Ümmət xanəsinə çilçıraq oldu,
Onu tanıyanlar haqq yolu buldu,
Aləmə bəzək də, zər də Əlidir!

İsmətdə nümunə, qeyrətdə yek ta,
İşi səxavətdi, ehsandı, əta,
Məqam-mənzilətdə yox ona həmtay,
Həya da, namus da, ar da Əlidir!

11. 10. 2006
Ramazan ayının səhəri



## YA MEHDİ

15 Şəban nəsib oldu bizlərə,
Təvəllüdün mübarəkdir, ya Mehdi!
Parlaq sitarəsən bu gecələrə,
Təvəllüdün mübarəkdir, ya Mehdi!

Arzum budur zühur xəbərin çatsın,
Yatmış canda ümidləri oyatsın,
Viladətin bayrama bayram qatsın,
Təvəllüdün mübarəkdir, ya Mehdi!

Gün olsun ki, gözlərdən yaşı silək,
Ayrılıq səddini yerlə bir edək,
Mövludunu Sənlə birgə keçirək,
Təvəllüdün mübarəkdir, ya Mehdi!

Sənə fəda, nəzər yönəlt bizlərə,
İşığından qüvvət gəlsin dizlərə,
Çiçək ələ xəzan olmuş düzlərə,
Təvəllüdün mübarəkdir, ya Mehdi!

Zühur elə, öpək əl-ayağından,
Meyvə dərək ədalət ağacından,

Soraq düşüb hər yana sorağından,
Təvəllüdün mübarəkdir, ya Mehdi!

Yoxluğundan əzir zalim məzlumu,
İnsanların pisləşməkdə durumu,
Gəl, məhv olsun zülm-sitəmin toxumu,
Təvəllüdün mübarəkdir, ya Mehdi!

17.07.2011

# İMAM RZANIN (Ə) ZİYARƏTİNDƏ

Basanda müqəddəs Məşhədə qədəm,
Tükənməz savabım olubsan mənim.
Qızıl günbəzini gördüyüm andan
Ən uca xitabım olubsan mənim.

Ulduzsan səmada səkkiz guşəli,
Şərqin də, qərbin də sönməz məşəli,
Əli övladısan, adın da Əli,
Ağam! Həyat abım olubsan mənim.

Dadıma yetiş gəl, ya İmam Rza,
Dərdimə əlac et, ya İmam Rza!

Məşhəd bir üzükdür, sən də qaşısan,
Xorasan Kəbədir – Qara daşısan,
Qumda Məsumənin saf göz yaşısan,
Qibləgah, mehrabım olubsan mənim.

Gümüşlə bəzənmiş qapından öpdüm,
Sevgini ruhuma lalətək səpdim,
Süfrəndən çörəyi gözümə təpdim,
Səcdəgah turabım olubsan mənim.

Mərmər döşəmələr, kaşı divarlar,
Hər yan al-əlvandır, bərq vurur par-par,
Tavanda güzgüdə yanır ulduzlar,
Göydə afitabım olubsan mənim.

Tutdum parıldayan gümüş zərihdən,
Eşqim alov saçdı sanki körükdən,
Duz kimi yaladım, sevdim ürəkdən,
Ətirli gülabım olubsan mənim.

İstəyin qəlbimdə əyləşib taxta,
Çıxmasın bu sözlər nə qəlp, nə saxta,
Çoxdan bu cümləyə yazmışam nida,
Dərdimə təbibim olubsan mənim.

Zərih dövrəsində əhvalı gördüm,
Sanki təşnələrin cənginə girdim,
Ruhuma Kövsərdən bol-bol içirdim,
Ustadi-ədəbim olubsan mənim.

Məmunun atəşdə yansın əlləri,
Salxıma vuranda acı zəhəri,
O gün tikə-tikə oldu ciyərin,
Ağam! Dərd-əzabım olubsan mənim.

Hər dərdə düşəndə üz tutdum sənə,
Bomboş qayıtmadı nə əl, nə sinə,
Vallah çox müştağam ziyarətinə,
Quyudan tənabım olubsan mənim.

Quranı yaşadın başdan ayağa,
Məkrli sualla düşdün sınağa,
Mətin cavabların döndü bir dağa,
Danışan kitabım olubsan mənim.

Gün doğur İrana Sənin yanından,
Nur alır aləmlər şöhrət-şanından,
Rizvan da adınçün keçər canından,
Behiştə bir babım olubsan mənim.

7 iyun 2007



## AŞURA

Kədər buludları çökdü üzlərə,
Qəlbi qövr etməyə gəldi Aşura!
Dərdi sinələrdən çəkib gözlərə,
Yanaqdan axıdan seldi Aşura!

O gün Ədalətlə zülm döyüşdü,
Eşqin Gülüstanı soldu, dəyişdi.
Zeynəb ən dözülməz dərdlərə düşdü,
Heydər ürəyinə xaldı Aşura!

Ağlatdı Rəsulu, ən pak insanı,
Sındı son dirəyi Ali-Əbanın.
Cənnət şəbabının Seyid şahının,
Qəbrinə düzülmüş güldü Aşura!

O gün bəndələrin şah sınağıydı,
Mərifət camının dolan çağıydı,
Başlar bədənlərin son qonağıydı,
Qonub ürəklərdə qaldı Aşura!

***

Əli Əsğər! Boğazdan oxlanan bala,
Günahsız qanına boyanan bala,
Təzə bir qönçəydin, çox erkən... bala,
Şəhid cərgəsinə saldı Aşura!

Əkbəri-növcavan, Abbas Ələmdar,
Hüseynin qanadı, dayağı onlar.
Kəsdi qol-budağın əduvvi-xunxar,
Bu dərdə saraldı-soldu Aşura!

Zeynəb izzətinə eylədi heyrət,
Əli qeyrətini duydu biqeyrət,
Etsə də nə qədər, zülm, rəzalət,
Mərdlik imzasıyla doldu Aşura!

İmam qiyam etdi, gəldi meydana,
Yezidin vücudu düşdü lərzana.
Ucaldı İblisin hayı hər yana,
Düşmən gözlərini dəldi Aşura!

Batil hökm eylədi, haqq əyilmədi,
"Heyhat! Zillət bizdən uzaqdır!" – dedi.
İslamı dirildib baqilik verdi,
Bunların şahidi oldu Aşura!

Kərbəla əzası sadə iş deyil,
Bəşəri mərdliyə etdirir meyil,
Yetmiş iki şəhid şah örnəkdi, bil!
Dərdə şəfa verən əldi Aşura!

Rizvanam, geymişəm əza libası,
Varlığım Hüseynin olsun fədası.
Gələr Aşurada Mehdi sədası,
Zülmü diz çökdürən yoldu Aşura!

# MÜQƏDDƏS 7-LƏR

Yerlərin-göylərin qatı, layları,
Yeddi rəqəmində bərqərar oldu.
Yaradan yeddidə qoydu hikməti,
Muğam da, məqam da onda var oldu.

Qulaq həmdərd oldu yeddi növ səsə,
Yeddi rəng bəzəkdi, ürəyə, gözə,
"Yeddi gözəl" zinət olubdu sözə,
Yeddi gün birləşdi – dost, yar oldu.

Kəbə təvaf oldu yeddi dəfəyə,
Yeddi "Fatihə"ylə yol tap şəfaya,
Yeddini nəqş elə qəlbə, qafaya:
Yeddidə bədəndən can fərar oldu.

# ANA

Canım bir parçadır canından sənin,
Fədayam nurlu göz-qaşına, ana!
Qoynun – beşik olub, südün – çörəyim,
Borcum dolanmaqdır başına, ana!

Kiçik bir dən kimi göyərtdin məni,
Hər an hifz eylədin məsum körpəni,
Ömür keçdi, zaman qocaltdı səni,
Qurbanam ömrünə, yaşına, ana!

“Cənnət anaların ayağı altda”
Buyurdu Peyğəmbər – salavat Ona!
Hörsün savablardan mələk daima
Bir səma çələngi başına, ana!

Erkən gəncliyindən mələk kimiydin,
Vaxt ötdü, bar verən bağa bənzədin,
Qocalıq mülkünə çatmısan, lakin
Qəlbin davam edir işinə, ana!

Övlad yola çıxsa kövrəlir qəlbin,
Ona söyləməyə söz tapmır dilin,

Dalınca  su atır titrək əllərin,
Heyranam gözünün yaşına, ana!

Hər vaxt çalışmışam çıxım borcundan,
Amma bilirəm ki, buna yox imkan,
İgid o oğuldur – tutsun qolundan,
Ucaltsın göylərin ərşinə, ana!

Rizvan, sağlığında qul ol anaya!
Baldan şirin-şəkər dil ol anaya,
Ver ömrü, ən gözəl il ol anaya,
Söylə: bahar olum, qışına ana!



# ATALAR

Ömrümün ən əziz günü, anıdır,
Vallah bir ipəkdi, nurdu atalar.
Azmışa Xızrtək yolu göstərən,
İsrafil çaldığı surdu atalar!

Tanrıya baş əyən mömin bəndədir,
Qeyrət timsalıdır, doğru dindədir,
Əyləşib – Əlinin haqq dərsindədir,
Duru dağ çayıtək gurdu atalar!

Ömrümün ən həzin təranəsidir,
Səsi hikmət dolu, öyüd səsidir,
Nəfəsi Ruhullahın nəfəsidir,
“Heyratı”, “Çahargah”, “Şur”du atalar!

Gözləri gözümün ağ-qarasıdır,
Varlığı ömrümün şam, çırasıdır,
Sinəsi bir Hira mağarasıdır,
Dəhanı Cəbrail, Turdu atalar!

Atanın ağrısı qoy mənə gəlsin,
Xürrəm həyat sürsün, ləzzət, kam alsın,
Hacı, hər bir ata kötücə görsün,
Böyük ziyarətdi, pirdi atalar!

10.06.07.

# ATA DEYİLMİ

Dünyada hər şeyin öz səbəbi var,
Varlığa səbəbin ata deyilmi?
Ruzi gətirənin, başda sipərin,
Tanrıdan bir dayaq, əta deyilmi?

Hər axşam atanın dizlərindən öp,
Alnında illərin izlərindən öp,
Yatanda yorulmuş gözlərindən öp,
Bu canı incitmək xəta deyilmi?

Hədisdir: "Hər kəsin üç "ata"sı var:
Biri müəllimdir, biri qayınata,
Bir də öz atandı, ömrünə şüar,
Bu söz Haqdan gələn səda deyilmi?

Bəzən acı sözlər çıxsa dilindən,
Bil ki, peşman olur sonra dərindən,
Suvardı ağactək alın tərindən,
Canı da səninçün fəda deyilmi?

Versə də yerində sənə cəzanı,
Sənin bədənini bilir öz canı,
Sönəndə qəzəbi, gəl gör atanı,
Göz yaşı qəlbindən nida deyilmi?

Atanın suçu da, səhvi də olar,
Bəni-Adəmdirsə, günah da edər,
Savabı da olar, kəc yol da gedər,
Hakimi övlad yox, Xuda deyilmi?

Quran deyib: Ata Rəbbindir səğir,
Ata padişahdır, bala da vəzir,
Ata əvəzi yox – neməti-kəbir,
Övlad – bu sultana gəda deyilmi?

Balaya öz əziz ömrünü verər,
Ən şirin meyvəni onunçün dərər,
Nəyi var gizlətməz, süfrəyə düzər,
Hər sözü müqəddəs qida deyilmi?

Əsla öz atanı etmə narazı,
Onun rizasıyla ölçər tərəzi,
Bil ki, Xaliq qoyar gözdə murazı,
Çox bəla gələrsə, qada deyilmi?

Uşaqkən sevdiyi tikəsin yedin,
Qocalsa tikəni ona ver yesin,
İncitmə – məbada, ürəyi küssün,
Ölərsə çox ağır vida deyilmi?

Üzünün nurundan nur al üzünə,
Alnını toxundur ayaq izinə,
Döndər sevgisini həyat tərzinə,
Bu sevgi ən əziz buta deyilmi?

"Atanın qarğışı iti qılıncdı",
Üzünə ağ olan rüsvay, gülüncdü,
Çox çəkməz qismətin bellə-külüngdü,
Hacı, bu Allahdan cəza deyilmi?

10.06.07


Rizwan
2016

## QIZIM ZƏHRAYA

Adın ən müqəddəs adın ehyası,
Mərhəba! Xoş gəldin, ay Zəhra qızım,
Xatunlar şahının daim duası
Üstündə dolansın, ay Zəhra qızım.

Gəlişin bir dünya bəxş etdi bizə,
Sanki günəş doğdu pəncərəmizə.
Güllərin ləçəyi, ətrisən təzə,
Bağçama səpildin, ay Zəhra qızım.

Anaya bacısan, ataya ana,
Qardaş ürəyinə çox incə məna,
Ocağıma mələk nəfəsli sona,
Güldən don geyindin, ay Zəhra qızım.

Baharda göz açdın qaranquş kimi,
Nəğməli səhərdə şən gülüş kimi.
Ruha fərəh verən xoş görüş kimi
Çiçəklərə qondun, ay Zəhra qızım.

Oğul biləyimdir, sən isə gözüm,
Oğul dayağımdır, sən şirin sözüm,

Keçdiyin yollara şeirlər düzüm,
Bizə həmdərd oldun, ay Zəhra qızım!

***

Arzumdur taleyi cümlə  qızların,
Səninlə birlikdə bəxtəvər olsun.
İsmət, şərafətdə Zeynəb bənzəri,
Bəxtdə Nərgiztək xoş xəbər olsun.

Dünyada bəxtiyar günlər görəsən,
Ana-nənəlik də nəsibin olsun.
Tanrıya baş əymək tacdır insana,
Qəlbində imanın sərvətin olsun.

Hər gün, hər anını Rəbbinçün yaşa,
Ömür baharını döndərmə qışa,
Yetir təravətlə, fərəhlə başa,
Keçən ömür-günün şərəfin olsun,
Gələn gün –muradın, ay Zəhra qızım!

# CAN ƏSMA

Peyğəmbər buyurub: evə gələndə
Hədiyyəni əvvəl qızına bəxş et.
Oğul da əzizdir ata gözündə,
Haqqın rizasına, qızını şad et.

O ata evində zərif bir güldür,
Tanrı mərhəməti, xarı bülbüldür,
Buğda bərəkətli sarı sünbüldür,
İsmini hər zaman şəfqətlə yad et.

***

On yaşın mübarək firuzə gözlüm,
Çöhrəsi günəştək parlayan Əsma!
Tanrının lütfünün nişanəsisən,
Ömrümdə bulaqtək çağlayan Əsma!

Evim işıqlandı sənin səsinlə,
Saf nərgiz ətrinlə, xoş nəfəsinlə,
Anan xoşbəxt oldu şux həvəsinlə
Qucaqda çiçəklər saxlayan Əsma!

Bəyaz gül çöhrəli mələksən, mələk,
Körpə ürəyində var arzu-dilək,

Nənə, ata-ana, birgə söyləyək:
Çat hər diləyinə, ay fidan Əsma!

Qardaş-bacı üçün qayğıkeş bacı,
Onlar ağri çəksə, çəkərsən acı,
Sənə qurban olsun öz atan hacı,
İsmət cərgəsində yer tutan Əsma!

Dilin şirin-şəkər, özün də balsan,
Daim hazırcavab, bir mahcamalsan,
Üzün təbəssümlü, yanağı alsan,
Mehr dəftərində iz salan Əsma!

Qeyrət, şücaətdə aslan kimisən,
Bəzən tər çiçəksən, ceyran kimisən.
Bizim ailəyə sultan kimisən,
Var ol, yüz il yaşa, şirin can Əsma!

Dolsun ürəyinə nur ilə iman,
Allah sənnən olsun, ay kiçik canan.
Pənahgahın olsun Sahibəzzaman,
Bir də kitabımız – bu Quran, Əsma!

01.02.2017



## GÖZ İÇİNDƏDİR

Xilqətdə hikmətə, zərifliyə bax,
Hər şeyin öz şəkli öz içindədir.
Rənglər öz yerində, ətir müxtəlif,
Aləmin mənası söz içindədir.

Meyvənin acısı, turşu, şirini,
Sözün də doğrusu, dayaz-dərini,
Hər kəsin istəsən bilmək sirrini,
İnsanın aynası göz içindədir.

Məğrurluq eyləyər insan var görsə,
Səbrini itirər yerin dar görsə,
Dünyada hər qədəm min dinar görsə,
Bir gün beş arşınlıq bez içindədir.

Beş günlük dünyadan beş "əllə" tutar,
Baxmaz haramlığa, nə gəldi udar,
Haqqın mizanında doğrular udar,
Şər əhli atəşlə köz içindədir.

Dəmir nə qədərdir, zər nə qədərdir?
Namuslu, qeyrətli ər nə qədərdir?

İman nə miqdarda, haqq nə qədərdir?
Ədl, tərəzidə "az" içindədir.

Ömür ilmə-ilmə, daim sökülür,
Qartək əriyərək axıb tökülür,
Qafil bilmir – hər an əməl çəkilir
Yatıbdır nemətdə, naz içindədir.

Hacı çox düşündü gərdişə, yola,
Çoxları qul oldu dövlətə, pula.
Sonuncu Mövlamız tez gələ – nola,
Fəqir çöldə, varlı xəz içindədir.

10.04.2011

# DİL VƏ ƏZALARIN SÖHBƏTİ

Sübh açıldı, əzalar dil açdı yenə səhər,
Dedilər: ey “mağara”da gizlənmiş böyük hünər,
Nə olar ağıldan izin almamış çəkmə xəncər,
Bəlalara salma bizi, tuş olmasın qəm-kədər,
Bircə yersiz söz söyləsən tər tökərik nə qədər.

Biz də günah eyləyirik, amma sənin qədər yox,
Cəhənnəmə qapı açdın hökmünə bax, yüzdən çox,
Peyğəmbərin dəhanında mübarək dilindən qorx,
Bir hikmətlər mədənidir, ləl-gövhər, simu-zər,
Yalnız ibrət, ya nəsihət gözəl hədislər söylər.

Ey dil, gur bulaq kimisən, bəzən acı dadarsan,
Sakit keçən bir məclisi çox rahatca qatarsan,
Sən gəlib dadlı-tamlı süfrəyə bir zəy qatarsan,
Dadar acı bibər kimi, sanki qatılıb zəhər,
Bibər də tək acı dadmaz, bəzisi dadar şəkər.

Bircə yanlış ifadənə çoxları getdi hədər,
Nahaq, böhtan, qeybət, töhmət əzbərin olubdu şər,
Daim qalmazsan cəzasız eşit, bil, ey bixəbər,
Şeytana qulluq eyləsən tez gələr Nəkir-Münkər,
Qəbrə vaxtsız endirərlər həmdəmin olar mərmər.

Danışmağın qaydasını Əlidən eylə əzbər,
Onun məktəbində ədəb öyrəndi Malik Əştər,
Ustad oldu çox insana qulu, mehtəri Qənbər,
Sən də ey dil, bu ustada ol qolu bağlı nökər,
Dadımıza yetişsin qoy bizim də şahi-Xeybər.

Quran, on minlərcə hədis xalqa gəlibdi səmər,
Haqq söyləsən təzim eylər önündə günəş, qəmər,
Səninlə fəxr eyləyəcək məhşərdə Quran, minbər,
İnsan sirlər şəhəridir, sən ona qızıl açar,
Rizvan, sən də cilovunu əldə saxla birtəhər,
Qorusan zəbanı bil ki, onda tapmısan sipər!



# SEYİD ABBASIN

Bir gün qonaq olduq Qarayazıda,
Candarda qəbrinə seyid Abbasın!
Könül quşa döndü ziyarətində,
Qurbanam cəddinə seyid Abbasın!

Ürək dostlarıyla həmsəfər olduq,
Dərdin çarəsini o yerdə bulduq,
Ürək hökm eylədi yolumuzu saldıq
Mübarək evinə seyid Abbasın!

Boyanıb işığa, nura bu ocaq,
Nura boyanırsan basanda ayaq,
Keçməsin üstündən duman, çən, sazaq,
Rəhmət türbəsinə seyid Abbasın!

Tanrının rəhməti çoxdu bu yerə,
Buradan verilər min əvəz birə,
Əyilib öpərək qoy üzün yerə,
Gələndə zikrinə seyid Abbasın!

Kor olub gözləri görmür vəhhabi,
Müstəcab duaya açılan babı,
Bədbəxt günah sayır belə savabı,
Gəlmir hüzuruna seyid Abbasın!

Ocağın pirmərdi, ay seyid Yəhya,
Eylədin Əhli-beyt yolunu əhya,
Salıb babaların bu yerə sayə,
Məzarı üstünə seyid Abbasın!

Əli qapısıdır bu möhtəşəm pir,
Qaynatdı köksümdən zülaltək şeir,
Ev əhli gələni qonaq eyləyir,
Otur süfrəsinə seyid Abbasın!

Sərin məqbərədə dil açdı ürək,
Boğaz qəhərləndi, göz oldu kövrək,
Rizvan, dua eylə, min salavat çək,
Müqəddəs ruhuna seyid Abbasın!

## ÇIXART ÜZÜNDƏN

Bu İslam yoludur, azan yoludur,
Yalançı imanı sil, at üzündən.
Hər şeyi bilən də, görən də Odur,
Taxdığın maskanı çıxart üzündən.

Etmə etiqadı pillə-nərdivan,
Mələk libasını geymə yalandan,
Sorğu, qiyamət var, tərəzi, mizan,
Hesab var, maskanı çıxart üzündən.

Utan, həya eylə, danla özünü,
Riya Yaradanın kəsər feyzini,
Yönəltmə özünə qəzəb-qeyzini,
İbrət al, maskanı çıxart üzündən.

Əməllərin yoxsa kürsüyə çıxma,
Qəlbdə tikilmiş xanəni yıxma,
Qupquru buludsan gözünü sıxma,
Ağlama, maskanı çıxart üzündən.

İmandan danışdın, səndə bu yoxdur,
Pisliyi pislədin, bu, səndə çoxdur,

Xain baxışların şeytani oxdur,
Yazıqsan, maskanı çıxart üzündən.

Uzatdın saqqalı, gödəldi şalvar,
Yoldan azmışlara çıxmısan qahmar,
Batil şəhərində olmusan memar,
Dön geri, maskanı çıxart üzündən.

Saqqaldan tor qurdun hörümçək kimi,
Gəlib düşən ola bir milçək kimi,
Ələ dini geydin bir əlcək kimi,
Ay bədbəxt, maskanı çıxart üzündən.

Bir gün düşsə yolun Mərdəkan səmtə,
İman səhnəsinə edərsən qibtə,
Axund başda, Hacı ayağı altda,
Baxanda maskanı çıxart üzündən.

Rizvan nəfs əlindən ahutək qaçar,
Düzlük, sədaqətdir hər sirrə açar,
Vaxtında tövbə et, tezcə ver qərar,
Taxdığın maskanı çıxart üzündən.

04.06.07.

# ƏLİNDƏ

Ruzinin halalı edilib qərar,
Zəhmətin, əzabın, tərin əlində.
Namusun qorumaq, zövcənin, qızın,
Qeyrətli atanın, ərin əlində.

Unutma şərəfi, unutma arı,
Unutma məzarda çətin halları,
Döndərmə ilaha dirhəm-dinarı,
Qul olma  qandallı, zərin əlində.

Aləmin şərəfi-şanı da insan,
Xəzinə, cəvahir, kanı da insan,
Sultanı da insan, xanı da insan,
İnsan! Nökər olma şərin əlində.

Qoluna güvənən sonda necə oldu,
Kürsüyə söykənən zəlil, heç oldu,
Dövlətli də öldü, kasıb da öldü,
Sümük una döndü gorun əlində.

Dünyanın işinə, gərdişinə bax,
Taxtda oturanın baxışına bax,

Azmışın danışıq, yerişinə bax,
Qanan zəlil oldu, xərin əlində.

Sonsuzdur enişin, yoxuşun sonu,
Ya küfr əsgərisən, ya Haqqın qulu,
İstəsən açarsan uçmağa qolu,
Dağlar təpə olur pərin əlində.

Dərdini demirsən – ruhun od tutur,
Deyəndə – dilindən quduz it tutur,
Rizvan, hər olaydan bir ibrət götür,
Dil açsın dərdlərin, şeirin əlində.

05.06.2007

## QƏMSİZ

Dünyaya ağlımın gözüylə baxdım,
Bir insan görmədim qəmsiz, matəmsiz.
Fəqiri qəsdinə əlçatmaz gördüm,
Varlını qəsrində bulmadım qəmsiz.

Kimini mərəzlə sınaq etdi O,
Kimini bəlayla yumaq etdi O,
Kimini kəfənlə dümağ etdi O,
Bir ana görmədim gözləri nəmsiz.

Bəzisi ruziyə qalıbdı həsrət,
Bəzisi namərdə olubdu qismət,
Kimsə cavan öldü tez oldu türbət,
Baxır baş daşından dərdli, səmirsiz.

Millət döyəclənir zalım əlində,
Danışır yadların qərib dilində,
Gördüm müsəlmanı kafir dinində,
Könül olmasınmı qaranlıq, şəmsiz?

Eşqimi söylədim sonsuz Cəmala,
Sevdası ucaltdı məni kamala,

Hər kim bu eşq ilə yana, qocala,
Söz qoşar, görməzsən əlin qələmsiz.

Rizvan, qərara gəl, unut dünyanı,
Nə fayda olsan da onun sultanı,
Yalnız öz Rəbbinə bağla sevdanı,
Yaşama rəhmətsiz, nə də kərəmsiz.

# DÜNYA İLƏ İNSANIN DEYİŞMƏSİ

**İnsan**
Səndən gələn xeyir Allahdan gəlsin,
Neynirəm varını sənin, a dünya.
Sənə aşiq olan sonda qan ağlar,
Əhdinə müxənnət, bivəfa dünya.

**Dünya**
Mənim kimi yarı harda taparsan,
Nağdıyam, axirət üçün qaçarsan,
Məndə nə əkərsən, məndə biçərsən,
Bil mənim qədrimi, Adəmin oğlu.

**İnsan**
Eşqini qəlbimə salmaram əsla,
Get başqa ürəyi soyub, yağmala,
Qəlbin dövrəsinə çəkmişəm qala,
Qoymaram çəkəsən kef-səfa, dünya.

**Dünya**
Ənlikli-kirşanlı gözəl qarıyam,
Axmaq səfehlərin dostu-yarıyam,

Şeytanın hiyləsi, son qərarıyam,
Buraxma əlimi, Adəmin oğlu.

**İnsan**
Hər ləzzətdən sonra əzab verirsən,
Ayığı məst edib şərab verirsən,
Öldürüb üstündə gülab verirsən,
Başı xoş, bədəni bir cəfa dünya.

**Dünya**
Mənəm İblis şahın böyük tələsi,
Tökür məni görən ağız şirəsi,
Elə minirəm ki, aldanan kəsi...
Gəl gör "atlarımı", Adəmin oğlu.

**İnsan**
Sənə aldananlar oldular zəlil,
Əksinə – Tanrıya sığınan: Xəlil.
Səni at eylərəm tutub yəqin bil,
Belində çaparam dördnala, dünya.

**Dünya**
Nə qədər işvə-naz eylədim yenə,
Məhəmməd, Əliylə uymadı mənə,

Çoxaldı dostları hər gündən-günə,
Korladı halımı, Adəmin oğlu.

**İnsan**
Uzaqdan baxanda gözəldi şəklin,
Yaxından baxana çirkindir əksin,
Əlidən üç kərə təkrar boşandın,
Döndərdi dəyərsiz bir dula dünya.

**Dünya**
Belə tez bezərək tez dönmə məndən,
Düşmüsən qoynuma sən əzəl gündən,
Səni çıxardaram qəmzəmlə dindən,
Bilmirsən fəndimi, Adəmin oğlu.

**İnsan**
Nəfsimə sonadək rəhm eyləmərəm:
– Səsini kəs! – deyib heç dinləmərəm,
Qəbrədək əuzu-billah deyərəm,
Dərmansız dərd verən bişəfa dünya.

**Dünya**
Cücəni payızda sayarlar, insan,
Arxı hoppanmamış dinmə o taydan,

Bir gün gələcəkdir səsin quyudan,
Görərəm halını, Adəmin oğlu.

**İnsan**
Səndə dən əkərəm, səndə biçmərəm,
Səndə quyu qazıb sudan içmərəm,
Məhsulu üqbada Haqdan istərəm,
O verər əvəzi min dəfə, dünya.

**Dünya**
Bəzən ürəklərə tapammıram yol,
Mənə hey qapıdan söylənir: – Rədd ol!
Kimlər məndən qaçır ollam ona qul,
Təzim də eylərəm, Adəmin oğlu.

**İnsan**
Sən bir vasitəsən sevmərəm səni,
Zirvəyə çatmaqçün istərəm səni,
Gəlsən şad olmaram, getsən qüssəni
çəkmərəm, dönsən də sədəfə, dünya.

***

Müdriklər dedilər dünyaya rəzil,

Yəni sevgisini ürəyindən sil,
Rizvan, belə olsa gözəldi dünya,
Malıyla, puluyla bir ləldi dünya,
Dünyaya şahlığı etsə Süleyman,
Bəzənər könüllər, ellər al-əlvan,
Eylə istifadə dünya varından,
Bu yolla cənnətə icazə qazan,
Gələndə dünyaya bircə dən idin,
Bitirdi, yetirdi, suvardı dünya,
Vəhdətdən kəsrətə nazil edildin,
Dəstini Vəhdətə yetirdi dünya,
Dünya bir ocaqdır nurlu, mənalı,
Bunu başa düşər hər bir zəkalı,
Dünyada bərqərar oldu Məkkəmiz,
Məkkənin ürəyi nurlu Kəbəmiz.
Dünyada doğuldu, yaşadı Əhməd,
Tanrı özü verdi dünyaya qiymət,
Kərbəla qoynunda, Nəcəf qoynunda,
Mənəvi dünyaya beşikdi dünya,
Mədinə qoynunda, Məşhəd qoynunda,
Gözləri nur saçan işıqdı dünya.
Köksündə ismətin sonuncu şahı,
Mehdiyə vurulub, aşiqdi dünya.
Qoruyaq dünyanı bir nemət kimi,

Sonrakı nəsilə bir sərvət kimi,
Dünya bir tarladır, insan toxumu,
Qadir əkinçimiz eyləyib şumu,
Bitək, əkinçini eyləyək razı,
O da çin eyləsin hər bir murazı.
Dönək Rəbbimizə layiq qul olaq,
Eşqindən oxuyan bir bülbül olaq.
Deməyək: zindandı, qəfəsdi dünya,
Bəlkə diriliyə nəfəsdi dünya.

05.06.2007




HƏVVA
6+1
ADƏM
162
2016
RIZVAN

# BƏLALAR

Bəlaları balalatma günahların işiylə,
Afətləri dolu edib yağdırma öz başına.
İki əcəl var, müəlləq əcəl və hətmi əcəl,
Hətmini yox, müəlləqi saldırma öz qarşına,
Vaxtsız əcəl qılıncını qaldırma öz başına.

Günahla “Dünya” xanımın gər oxusan əqdini,
Müəlləq adlı bir körpə qəsb eyləyər evini,
Məcbur zil qara parçaya tutarlar beşiyini,
Ömrün uzun yazılıbdır, gəl tüpürmə aşına,
Vaxtsız əcəl qılıncını qaldırma öz başına.

Müsibətə düçar olsan asi olma Allaha,
Yaxşılıqlar Ondan gəlir, pislik süzmə qədəhə,
Hər nə bəla gəlsə başa, deməк batdın  günaha,
Ömrün işıq xəttini gəl kəsmə boş-boşuna,
Vaxtsız əcəl qılıncını qaldırma öz başına.

Hər müşkülün həll yolu var, müəlləqə var çarə,
Günah etsən tövbə eylə qəlbi sal ahu-zarə,
Sədəqə çıx qoy azalsın cəhənnəmdə hərarət,

Sədəqəni sipər eylə haqqın qəzəb daşına,
Vaxtsız əcəl qılıncını qaldırma öz başına.

Hətmi əcəl hamıyadır Nuh qədər yaşasan da,
Əzrail yan keçməyəcək – padşah ya paşasan da,
Hər anının bil qədrini yüz yaşını aşsan da,
Geri əlidolu dönən gələr Rəbbin xoşuna,
Vaxtsız əcəl qılıncını qaldırma öz başına.

06.06.2007

## ÖLÜMLƏR

Ölüm çağrılmamış mehmandır, insan,
Gələr harda olsan, nə vaxt istəsə.
Qəfil hücum eylər xəbər-ətərsiz,
Udar qor da olsan, nə vaxt istəsə.

Ölüm – namuslara dolaşsan gələr,
Ölüm – günahlara bələşsən gələr,
Ölüm – suçsuzlara ilişsən gələr,
Əzər zor da olsan nə vaxt istəsə.

Ölüm – öz həddini çox aşsan gələr,
Ölüm – düz yolunu çox çaşsan gələr,
Ölüm – hər keçənə dolaşsan gələr,
Kəsər sər də olsan nə vaxt istəsə.

Lakin ölüm də var şərəfdir, şərəf,
Zülmə qarşı cihad – eyləsən hədəf,
Həllactək eşqdən alışsan – kələf
Dolansa boynuna bu bir görüşdür:
Gəlsin belə ölüm – nə vaxt istəsə.

# DEDİLƏR

Batili görəndə susmadı mömin,
Dinməzlər dinənə dinməz dedilər.
Dərk etdi aləmin pünhan sirrini,
Qanmazlar qanana qanmaz dedilər.

Möminlər döyüşdə bəhsə çıxdılar,
Ölümə sevgili yartək baxdılar,
Şəhadət şərbətin başa çəkdilər,
Baxanlar: – Geriyə dönməz! – dedilər.

Hər ağ saqqallıya demə danəndə,
Tanrı İbrahimtək istəyir bəndə,
Peyğəmbər tonqala gedib düşəndə
Mələklər Xəlilə yanmaz dedilər.

Təmmar dərsin aldı Əli-Mövladan,
Dedi həqiqəti hər an durmadan,
Asanda namərdlər onu xurmadan,
Ölsə də məsləki danmaz dedilər.

6 iyun 2007



# EYLƏMİŞƏM MƏN

Sinə xəzinədir, dil də açarı,
Dili əhli-zindan eyləmişəm mən.
Bağrımda çox əsrar, əmanət yatır,
Köksümü qəbristan eyləmişəm mən.

Hər ölkənin şahı, öz paytaxtı var,
Ən baş meydanlarda heykəl qoyular,
Mənim ürəyimdə öz abidəm var,
Ruhuma bir sultan eyləmişəm mən.

Keçdi nəzərimdən ötən illərim,
Dedim: – Endirmişəm Rəbbimə səri,
Nəfsin boğazına çəkib xəncəri,
Xaliqə bir qurban eyləmişəm mən.

İblis bir gün gəldi ağac gətirdi,
Könlümdə ağacı əkmək istədi…
Suvardı – bitmədi. Məluna dedim:
– Qəlbimi duz-şoran eyləmişəm mən.

Hər kəsin könlünün bir butası var,
Sönməyən, əbədi eşq-sevdası var,
Rizvanın qürbətdə bir Mövlası var,
Eşqini bir dastan eyləmişəm mən.

6 iyun 2007

## BALAMIN XİLAS YOLU

Bir zaman şirin-şəkər, totuq körpə cocuq idi,
Dərisi ipək kimi, gözü qara moruq idi,
Diş çıxardıb dil açdı, sözü kəsik-qırıq idi,
Sevincdən göyə uçar, deyərdim ləl əmdi balam,
Noğuldu, ləpə, nabat, şipşirin badamdı balam.

Böyüdü asta-asta, başım qarışdı özümə,
Unutdum tərbiyəni, işim çəkirdi axşama,
Qonşular dedi: uşaq qalıb tamam öz başına,
Dedim ki, nə dəxli var, gör necə oğlandı balam,
Sinəmdə ürəyimdi, əzizim-atamdı balam.

Ay keçdi, il dolandı, böyüdü oldu növcavan,
Qoymadım pul-paradan boş qalsın cibləri bir an,
Pislərlə dostluq edir – deyirdi hər canı yanan,
Baxanda düşünürdüm lal-dinməz adamdı balam,
İşində nə irad var, məncə, tam nizamdı balam.

Bir gün gördüm ki, əldən gedir düşdüm əl-ayağa,
Başladım onun üçün çıxış yolu aramağa,
Dedilər: bir yolu var, nicat yolu bu uşağa –
O da İslam yoludur! Din yolu səhhətdi, ağam,
Bildim ki, dini olmasa faydasız adamdı balam.

Tanrının kərəminə şükürlər olsun bişumar,
Quyudan nicat verdi, nəsib etdi doğru qərar,
Allahü-əkbər olub dilimizdə zikr, şüar,
Axır ki, gəldi yola, namazda qiyamdı balam,
Həm aşkar sevincimdi, həm şirin röyamdı balam.

## YAĞLICADA QƏRİB MƏZAR VAR

Bir ılıq  yaz əyyamında yolum düşdü Yağlıcaya,
Xırda təpə üzərində bir məzara baş çəkməyə.

Könüllərdə məqam tutub bənzəri var Əlincəyə,
Yavaş-yavaş daxil oldum hasarından içəriyə.

Düşüncələr qanad açdı, könül quşu çıxdı seyrə,
Keçmişləri vərəqləyib cəhd elədi bir  şey görə.

Kimdi bu qərib məzarda uyuyan Allah vəlisi?
Ona nəzir eyləyənlər qayıdar əli dolusu.

Haqq yolunda şəhiddirmi, ya dərvişmi, ya arifmi?
Ya son dini təbliğ edən haqq carçısı bir xətibmi?

İsminə Pir Sultan yaxud, Sultani-Qeys söylədilər,
Sultan kimdir, Qeys kimdir? – soruşdum, çiyin çəkdilər.

Qocaların xatirəsi yarama məlhəm olmadı,
Dəryasına bu məzarın qəvvas ruhum dalammadı.

Deyirlər ki, bir vaxt olub Rusiyadan namə gəlib,
Ol namədən irsimizə sağalmaz sədəmə gəlib.

Bu məzarın üzərində olan qədim baş daşına,
Toxundu xain əlləri, qəbir qaldı boş-boşuna.

Salnamənin sinəsində bir daş kitabəsi idi,
O günlər sahibi-qəbrin matəmiydi, yası idi.

Ruhu da üz tutub bizə iki əlli: – Kömək! – dedi,
Qalxın dostlar! İrsimizi belə itirməyək! – dedim.

Bir zamanlar məşhur olan – məlum olan cənnət-məkan,
Çağdaş nəsil üçün olub naməlum, məxfi bir insan.

Son zamanlar öyrənmişəm kimliyini bu insanın,
Onun ismi Qeys ibn Übadədir – Ənsar – tanı.

Həm Peyğəmbər səhabəsi, həm imamlar sirdaşıdır,
Borçalının şərəfidir, tacındakı daş-qaşıdır.

Gəl atmayaq irsimizə təpiklə daş – gəl dayanaq,
Atalar da deyib: “Bizi gələcək topa tutacaq”.

Gəl, əl-ələ verək, əziz yurdumun qeyrətli oğlu,
Saf qanımız türk qanıdır, qəlbimiz İslama bağlı.

Hər türbənin, hər qəbirin, məscid, minarə, günbəzin,
Bilək qədir-qiymətini, qucaqlayaq həzin-həzin.

Ən azından öz evimiz bilək hər qala, divarı,
Körpülərdi, hərəmlərdi bu millətin dövlət-varı.

Yekun sözüm: əzizlərim, istəyirikmi yaşamaq?
Saxlayaraq simamızı, əğyara olmayaq yamaq.

Tiflisdə Nəbatat bağı, Quşçuda var qədim qalam,
Qoçulu kəndində, gəl, bax, vüqarlı igidim qalam.

Kolayırın qalasının bürclərinə qalxan bilər,
Comərdlərin ürəyində torpağa var necə təpər.

Dəmirçihəsənli əhli – qəbirləri yan-yanadır,
Baş daşları əyilsə də yıxılmayan mərdanədir.

Candarda Çinar günündə toplaşanlar bilirmi ki ?
Burada cüt qəbir olub, lakin itkin düşüb izi.

Əvvəl özümüz tanıyaq bu yerləri, sonra sevək,
Bizdən sonra gələnlərə həm tanıdaq, həm sevdirək.

Evimizin divarını bəzəsin məscid, qalamız,
Səhər-axşam bu təsvirə nəzər etsin ev əhlimiz.

Sələfimiz görməyəni xələflərə təbliğ edək,
Bir gün qəbrimiz üstündə Fatihə, rəhmət eşidək.

Yaşatmasaq heç olmasa bizə çatan az mirası,
İnanın ki, bir vaxt çatar bizə lənətin sədası,

Məhşər günü üzü qara, baş aşağı niyə duraq?
Bax bu gündən hər türbəyə, hər qəbirə gedək qonaq.

Rizvanın da göz yaşları ürəyindən versin soraq,
Hər məzarın sinəsində yandıraq bir nurlu çıraq.

17.06.2007


100
2
N
B
60
S
A
400
M
T
A
U
H
N
50
2016 3
RIZVAN

# ÜRƏKLƏ SÖHBƏT

Sinədə bir parça ət deyil ürək,
Bir ovuc tikədə aləm gizlənib.
Ürək bədənidir candakı qəlbin,
Şəninə, minlərlə xoş nam söylənib.

Bəzən sandıq olur kinə, nifrətə,
Faydalı işləri salır həsrətə,
Hərdən təpik atır uca nemətə,
Belə ürəklərə bədnam söylənib.

Bəzən mehrab olar eşq qibləsinə,
Əl verməz İblisin hər hiyləsinə,
Aldanmaz dünyanın bir giləsinə,
Belə könüllərə Hərəm söylənib.

Əqli gözətçiyə döndərsə ürək,
Ora keçə bilməz nə şər, nə kələk,
Xaliqi bu evə sahib eyləsək,
Qeybdən bu qəlbə: – Kəbəm! – söylənib.

Öyrən peyğəmbərdən qəlbin qədrini,
Əli kəlamında duy xoş ətrini,
Quran ona verib neçə sətrini,
Rizvana bu hikmət hər dəm söylənib.

19.06.2007

# TİFLİS

Yaradanın bəyəndiyi,
Seçib-qoruyub sevdiyi,
Çox uca dəyər verdiyi,
Üç şəhərdən biri Tiflis!

Sədəf arasında mərcan,
Bu gözələ bax – ol heyran,
O dağ döşündə bir ceyran,
Qafqazın gövhəri Tiflis!

Gözəlliyi dillərə zər,
Çiçəkləri təptəzə, tər,
Bülbülü edər nəğməkar,
Bir canandır, huri Tiflis!

Kür adında hörüyə bax,
Sinə üstə qıvrılaraq,
Sən, ey dilbər, gəzmə uzaq,
Bax bizə də sarı, Tiflis!

Hübeyşə bir beşik oldun,
Əbulfəzlə işıq oldun,
Tara, saza aşiq oldun,
Sənətkarın yarı Tiflis!

Şeyx Sənana xanəgah,

İmamzadəyə səcdəgah,
Seyidabad sənə pənah,
Əhli-beytin dəri Tiflis!

Könlü açıq, qonaqpərvər,
Səndə qardaşdı məbədlər,
Vəhdət yaratdı körpülər,
Məhəbbətin yeri Tiflis!

Başı bəlalı şəhərim,
Dağıldı məscid, minbərim,
Nəbatat bağı qəhərim,
Könlün qəm-kədəri Tiflis!

İsti sulu hamamları,
Parkları, meydanları
Dirildir ölü canları,
Şairləri, şeiri Tiflis!

Qayaların üzərində,
Metex – tərlan bənzərində,
Gələnlərin gözlərində,
Şəhərlərin şiri Tiflis!

Tərifi bitməz buranın,
Zühurda dostu Quranın,
Beş yarı Mehdi ağanın,
Yox edəcək şəri, Tiflis!

Gül-çiçək açıb bağların,
Gözə nur verir suların,
Müctəhid bağı sorağın,
Mat qoyub yadları, Tiflis!

Bir vaxt özgə şəni vardı,
Şairlər məclis qurardı,
Bülbülcan cəh-cəh vurardı,
Mələklərin pəri, Tiflis!

Şuşalı Seyidin yarı,
Qurban Pirimovun tarı,
Aşıq Qəribin dildarı,
Şəhərlərin səri Tiflis!

Səhnəyə dahilər verən,
Mərdanova oldun vətən,
Nəso, İbrahim, Əlidən,
Qurubdu teatrı Tiflis!

Məcnun çıxanda səhnəyə,
Düşürdü zala vəlvələ,
Əli Bayramov Leyliyə
Qurub nalələri Tiflis!

"Bəzəkli"nin kaşıları,
Səfəvilər yadigarı,
Kərpic günbəz hamamların,
Qafqaz zirvələri, Tiflis!

Mirzə Cəlil gəldi sənə,
Qol açdın sən dərgisinə,
Qoca "Molla Nəsrəddin"ə
Dedin: – Di dur yeri! Tiflis!

Çalpapaqlı qoca şəhər,
Tanrıdan ecazkar əsər,
"Cümə-məscid" bədri-qəmər,
Saçır işıq-nuru, Tiflis!

Rizvanın eşqi çox sənə,
Yaşayasan minlər sənə,
İlhamınla dolub sinə,
Zirvələrin qarı Tiflis!

20 iyun 2007

## BORÇALI

Ağrın mənə gəlsin, ay ulu torpaq,
Tutum qollarından, Borçalı anam,
Sınmaz budağında nəğməkar quşam,
Öpüm güllərindən, Borçalı anam.

Dağına çıxanda döndüm qartala,
Baxıb heyran oldum ürkək marala,
Döndün arı çəkən çiçəktək bala,
Öpüm əllərindən, Borçalı anam.

Səni ağlar görmək mənə ölümdür,
Cismin param-parça, didim-didimdir,
Sənin hər kədərin mənim dərdimdir,
Öpüm tellərindən, Borçalı anam.

Yatım qucağında mənə layla çal,
Ay ana diyarım, ay tacu-mahal,
Sevinc göz yaşların yağışa misal,
Duydum sellərindən, Borçalı anam.

Biz unutduq səni, sən unutmadın,
Qədirbilməzlərə divan tutmadın,

Öldük, gətirdilər torpaq qıtmadın,
Verdin gillərindən, Borçalı anam.

Səndən uzaqlarda qürbətdə olsam,
Yadlar torpağında behiştdə qalsam,
Rizvan deyir: neçə saray ucaltsam,
Öpüm yollarından, Borçalı anam.

20 iyun 2007



# DÜNYA

Naşıya əlçatmaz, böyük görünür,
Arifə xırdaca yumaqdı dünya.
Qafilə "əbədi" qərar yeridi,
Abidə ötəri sınaqdı dünya.

Başdı bədənlərin şahı, zirvəsi,
Ağıl bu "ölkənin" xanı, valisi,
Çaşma gəl, gəl desə – altun, xalısı,
Tac deyil, altında torpaqdı dünya.

Varı da vəfasız, qarı da onun,
Günü də vəfasız, qoru da onun,
Yurdu da vəfasız, yeri də onun,
Köksüz çiçək açmış zanbaqdı dünya.

Kimi eyş-işrətə başı qarışdı,
Varlı varlılarla pulla yarışdı,
Kökəldi yeməkdən top kimi şişdi,
Elə bildi ona dayaqdı dünya.

Böyük Füzulilər dad etdi burdan,
Nəsimi qəfəstək yad etdi burdan,

Səfehlər məəttəl-mat getdi burdan,
Məzartək qaranlıq otaqdı dünya.

Şeytanın əlində yoğun dirəkdir,
Tələyə qoyulmuş köhnə çörəkdir,
Dünya – nadanlara uca fələkdir,
Zahidə "üçüncü" ayaqdı dünya.

Ayıl! Yüyrək gedir, tez gedir karvan,
Ömür çox bahadır yaqut, almazdan,
Bişər bir səhər də umaclı halvan,
Hər kəsə bir neçə varaqdı dünya.

Hər gün eşidirik: filan da öldü,
Bir ana kədərli – oğulsuz qaldı,
Rizvan, bel-külüngü əlinə aldı –
Qəbrini qazmağa "qoçaqdı" dünya.

7 iyun 2007

## OLARSAN

Şeytan ova çıxır hər an, qardaşım,
Qorx ki, ovlanmış “turac” olarsan,
Tanrı ucaltdığı ülvi məqamdan,
Düşərək taxtınla tarac olarsan.

Dilini nalayiq sözlərdən qoru,
Özünə əlinlə tez qazma goru,
Halala sərf eylə qüvvəni, zoru,
Yoxsa bir tikəyə möhtac olarsan.

Namaz qıl – o qoymaz düşəsən şərə,
Namazı olanlar nurdu məhşərə,
Səcdəyçün başını qoyanda yerə,
Yüksəlib bir əhli-merac olarsan.

Haramdan uzaq ol, məkruhdan qıraq,
Günahdan elə qaç düşəsən uzaq,
Tanrı olar sənə zəban, göz-qulaq,
Dərdliyə şəfalı əlac olarsan.

Hər an məxluqata eyləsən nəzər,
İnsandır aləmə bəzək, simu-zər,
Ruhu paklamaqdır ən böyük hünər,
Saf olsan bəşərə bir tac olarsan.

8 iyul 2007

# QARDAŞ

İçindən bir köz ver mən də isinim.
Yaman üşümüşəm, ay şair qardaş!
Misradan bir çələng toxu qoy başa,
Yaman darıxmışam, ay şair qardaş!

İndi şeir deyən yaman çoxalıb,
Sözü öldürərək mənasın alıb,
Kəlmələr mənasız, eh, yetım qalıb,
Artıq qarıxmışam, ay şair qardaş!

Dəvə daşa çıxar, ulaq parada
Qanmaz  "madyan" deyir indi Qırata!
Şeytan əl uzadıb namus, qıryata!
Yaman duruxmuşam, ay şair qardaş!

Düşmən həlqə kimi daraldıb belim,
İstəyir lal olsun danışan dilim,
Allah nə vaxt gələr O qaib Gülüm?
Yaman doluxmuşam, ay şair qardaş!

Rizvan, əllərinlə itir qaranı!
Yaxşı dəyərləndir dürüst ərəni,
Möhkəm qoru evdə orta kərəni,
Artıq qalxmışam ay şair qardaş!

03.03.2012

## SEVGİ

Sevgi nə deməkdir – kim deyər mənə –
Onun od-alovu ürəkdədirmi?
Fərhad Bisütunu yardı Şirinə
Məcnun eşq əlindən dirəkdədirmi?

Romeo eşqinə oldu qurbanlıq,
Ruslan da mülkündə viran, talanlıq...
Biz də bu zümrədə oda qalandıq,
Canımız yar üçün kələkdədirmi?

İlk sevgi – bənövşə, ilk – sevgi nübar,
İlk dostdan ayrılmaq ən böyük qubar.
Ay Rizvan, dünyada nə qədər var var –
Qucağa sığınan bələkdədirmi?

Hər cümə gözlərin gözləyir xəbər,
Xəbər gəlməyəndə gətirir qəhər.
İlahi! Görəsən nə qədər çəkər,
O müjdə bu bahar çiçəkdədirmi?

03.03.2012

## DEYİLMİ

Qaranı ağdan ayırdın,
Solu da sağdan ayırdın,
Çör-çöpü bağdan ayırdın,
Yol hamar gərək deyilmi?

Baharın gəlir nəfəsi,
Qışın pozulur qəfəsi,
Şeytanın sındı tələsi,
Azadxah ürək deyilmi?

Dağın dumanı ağ papaq,
Qapaqdı qəbrinə  torpaq,
Hər keçən gün... düşən yarpaq...
Ötən il... külək deyilmi?

Allaha, olduq günahkar
Haqq sözə lal, ya da ki, kar,
Cənnətdə pozduğun qərar,
Yaxdığın əmək deyilmi?

Göz günahdan quru kəhriz,
Xəbisdən etməyir pəhriz,
Mən dedim sizlər də bildiz,
Düşünmək gərək deyilmi?

03.03.2012


Rizvan

# BAŞLANIR

Sinəm bir dəniz mənbəyi,
Dərdlərim tufanlı dərya.
Məhəbbət karvanı yolda,
Səfəri dildən başlanır.

Bulaq aşiq, dəniz məşuq,
Ürək atəş, sevgi işıq,
Dərdin süfrəsi qarışıq
Məhəbbət güldən başlanır.

İlin bəxti yaz açılar,
Kasıb qapısı az açılar.
Ömür ipin vaxt qayçılar,
Yaz fəsli seldən başlanır.

Ayıl, ey yuxuya dalmış,
Cərgədə axıra qalmış,
Sol ələ dəftərin almış,
Fatihə gildən başlanır.

Gözəl demiş ol övliya:
Ələ, dilə sahib ol, ya!
Kəlimətullahi hiyəl-ulya!
Şəhadət dildən başlanır.

03.03.2012

# EDİR

Qara torpaq açıb qolun,
Hər an qonaq qəbul edir.
Gündə birin yetim qoyur,
Kimi öldürüb dul edir.

Çoxlarını oraqlayır,
Əməlini vərəqləyir,
Harda olsan soraqlayır,
Önündə müti qul edir.

Kimləri çürütdü yerdə,
Nicat tapan mində birdə.
Dünya adlı nazlı girdə
Para-para, pul-pul edir.

Bel bağlama ona, qardaş!
Qardaş ona – bir qara daş,
Çoxun vurub yavaş-yavaş
Əliylə kəfən-qüsl edir.

03.03.2012

# TÖVBƏ QAPISI

Şeytan müsəllətdir vücud mülkinə,
Qoymayır müstəqim gedəm yolumu.
Günah palanından qoymur silkinəm,
Hiyləyə tutubdur sağımı-solumu.

Günah bir mərəzdir, ruhun köksünə
Əsirəm, bənd edib əlimi-qolumu.
Fürsət axtarıram çıxam əksinə,
Çəkib çıxardaraq sudan çulumu!

Tövbə qəbul edən, rəhmət timsalı,
Zikrin zinətləyib dodaq-dilimi.
Ümid karvanının şahı-cəlalı,
Nura boyayırsan qəlbi-səlimi.

Ya Rəbb! Mərhəmətin mənbəyi sənsən,
Açıb uzatmışam sənə əlimi!
Yapış, xilas eylə nə olar dardan;
Günah öz yüküylə əymiş belimi...

# ...qovuşdun cənnəti-rizvanə sən

# ƏLİDİR, ƏLİ (Ə)

Fatimənin gözlərinin sevgi selidir Əli!
Mustafanın bağçasının ən saf gülüdür Əli!

Quran haqqın kəlamıdır, susqun-samit, səmirsiz,
Lakin, Yəzdanın danışan nida-dilidir Əli!

Dinin əyilməz sütunu, dəyirmanın milidir,
Xilafətin billah özü, çarxı-belidir Əli!

Haqqın Mustafa adına Bilik Mədinəsi var,
O şəhərin darvazəsi, tənha yoludur Əli!

İblisin ordusu onu görüb oldu pərişan,
Nurun Mərhəbi tən bölən, vuran qoludur Əli!

Onu sevən qatışdırmaz düzlə əyrini əsla,
Xaliqin furqan, hidayət, rəhmət əlidir Əli!

Cümlə Quranın mənası Bismillah “Ba”sındadır,
“Ba”nın yanağında yekta zinət xalıdır Əli!

Cahillərin nəzərində Əli bir sadə insan,
Aşiqlərin hər nəfəsi, bəmi, zilidir Əli!

Qoy nadanlar deməsinlər Hacı şirk söyləyir,
Tanrının əziz vəlisi, xalis quludur Əli!

23 avqust 2007

## NEYNİRƏM

Mən Əlinin nökəriyəm, başqa xaqanı neynirəm,
Eşqini canda saxlaram, qeyri ağanı neynirəm.

Şah da Odur, mah da Odur, qalibi-tamah da Odur,
Dünyanı diz üstə qoyub, qeyri şücanı neynirəm.

Döyüşlərin aslanı O, deyimlərin sultanı O,
Zəbanların dastanı O, qeyri dastanı neynirəm.

Fatimənin ürəyidir, Mustafanın kürəyidir,
Həqiqətin biləyidir, qeyri ünvanı neynirəm.

Aşiq olan Haqqa əzəl, ismi özü kimi gözəl,
Dünya malı ona xəzəl, qeyri Mövlanı neynirəm.

Mərdə misal başında al, ayrı yerə salma xəyal,
Bu Mövladan gen gəzmə gəl, onsuz imanı neynirəm.

Əli – Alinin əlidir, Vəli Xaliqin yoludur,
Dili Allahın dilidir, qeyri zəbanı neynirəm.

Rizvanın razi-niyazı, dilinin sözü-avazı,
Əli yolunda mən qazi, başqa sultanı neynirəm.

19 iyun 2007


162
162

## BAX

Mənliyini pula satma, Allaha-Tanrıya bax,
Ömür keçir, işlə, yatma, Allaha-Tanrıya bax.

Övlad üçün, xanım üçün düşmə haram yollara,
Özünü odlara atma, Allaha-Tanrıya bax.

Məmur olsan ədalətlə hamıya bir nəzər sal,
Kasıba rəhmini qıtma, Allaha-Tanrıya bax.

Qızı, xanımı bəzəyib üryan atma küçəyə,
Xalqı cəhənnəmə dartma, Allaha-Tanrıya bax.

Bir yaxşılıq etsən əgər Allah olsun niyyətin,
Əsla gəlib başa qaxma, Allaha-Tanrıya bax.

Hər gördüyün eyibləri faş eləmə aləmə,
Abrını töküb aparma, Allaha-Tanrıya bax.

Kasıb idin varlı oldun, ruzini bil Rəzzaqdan,
Öz əslinə təpik atma, Allaha-Tanrıya bax.

Əslin nəcis, sonun nəcis, ortada hambal kimi,

Bu hikməti gəl unutma, Allaha-Tanrıya bax.

Haqqı nahaqdan seçməyə Kərbəlaya qıl nəzər,
Yezidlə Hüseyni qatma, Allaha-Tanrıya bax.

Kimə bənzəsən məhşərdə onunla həşr olarsan,
Yadlara özün oxşatma, Allaha-Tanrıya bax.

Ünvanına bəd söylənsə, araşdır sonra inan,
Zənn edib günaha batma, Allaha-Tanrıya bax.

Rizvan, Tanrı hansı yeri səndən xali istəsə,
Saqın! O məclisə getmə, Allaha-Tanrıya bax.

17 iyun 2007

## YANAR

Ruhum pərvanə olub zəbaneyi-şəmdə yanar,
Halıma nəzər salan saf bəni-Adəm də yanar.

Dilbərin eşqi əgər kimdə təcəlla eləsə,
Sinada Musa yanar, Bəlxidə Ədhəm də yanar.

Tən evində can sutək yüz mənzili tey eləsə,
Buxara dönmək üçün asta-asta dəmdə yanar.

Muğamat nidasıdır, naləsidir aşiqlərin,
“Mənsuriyyə” oxunsa zil də yanar, bəm də yanar.

Əhli-beyt ümmanına varmaq üçün arıl, durul,
Varmayan bu dəryayə nari-cəhənnəmdə yanar.

Hər kəsin öz qəmi var, Neynəvadı dərdi qəmim,
Sinəmdə kövrək ürək, mahi-Mühərrəmdə yanar.

Əlinin eşqinə sahib olan ol kəslərə bax,
Əbuzər döndü közə, Salman da, Meysəm də yanar.

Borçalı ellərinin “Kövsər”ə çoxdur ədəbi,
Hacı da ol xanımın dərdinə matəmdə yanar.

## QARƏ İMİŞ

Dilbərə bax, bu, necə nazlı, zülfü qarə imiş,
Hər sözü, hər baxışı mərəzlərə çarə imiş.

Vadiyi-eşqə düşən tazə qədəmzən mən idim,
Əl-əsəf qafil oldum, hər sözü işarə imiş.

“O”nun eşqi məşuqu dəşti-biyabanə salar,
Hübbunu söyləməyə əlac, kaman-tarə imiş.

Susursa üşşaq əgər, demə yoxdu dərdi-qəmi,
Gecələr ərşə çıxan ol səsi biçarə imiş.

Liqanı eylə nəsib, ey sədası nazlı sənəm,
Deyəsən mən qəribin qisməti ah-zarə imiş.

İsminə olum fəda lütfun ilə eylə nəzər,
Ya da öldür ki, bilim bəxtim elə darə imiş.

Ey yolun yolçusu gəl, səbri sipər et başına,
Hövsələn olmasa bil, yolun atəş-narə imiş.

Hacı, nəfsin sözünə baxma ki, merac edəsən,
İblisin tək silahı bu nəfsi-əmmarə imiş.

9 iyul 2007

# UZAT

Müşkülə düşsən əgər dəstini Sübhanə uzat,
Xaliqin dəsti olan ol Şahi-Mərdanə uzat.

Fəqirlik imtahandır, səbr ilə keç get bu yolu,
Ayağı qənaətlə be qədri-yorğanə uzat.

Qapını döysə əgər, saili boş qaytarma,
Zinəti-dünyadı pul, qıtma, ol insanə uzat.

Bu könül bir hərəmdi əğyarı qoyma bu evə,
"Kəbə"nin kilidini ol uca Rəhmanə uzat.

"Əhli-beyt"ə nökər ol, ey pul üçün dini satan,
Saqqalı uzatma, balağı az tavanə uzat.

Əlini sevməyən kəs unutsun behişt- məvanı,
Aqil ol Kovneyndə əlini Aslanə uzat.

Hacı, haqqla-batilin fərqinə vardınsa əgər,
Daha bəsdir əlini, az o yan-bu yanə uzat.



# GÖRƏ

Qəbul olmaz bir əməl olmasa Yəzdanə görə,
Lütfə bax, xəlq edilib hər nə var insanə görə.

Məqsudə yetmək üçün xuni-ciyər görməliyik,
Kimi də haqdan qaçır qaranlıq zindanə görə.

İslamın güllərini suvardı qanilə Hüseyn,
Gör nə zəhmət çəkilib şəriət, Quranə görə.

Kimisi səcdə edir, dünyasına çatmaq üçün,
Kimi də baş endirir əqidə, vicdanə görə.

Hani ibn Ürvəyə bax, əhdə vəfa səhnəsinə,
Kufədə verdi səri tək qalan mehmanə görə.

Tarixin övrağına ibrətilə eylə nəzər,
Zalim önündə hilal oldular, tümənə görə.

Ehtiras zəncirini İblis atıb qollarına,
Tanrıdan gəzmə uzaq bir qaşı kamanə görə.

Hacı əsla dəyişmə Rəbbinin lütfü-ətasın,
Minlərcə eyşi-nuşa, ləzzəti-şeytanə görə.

11 iyul 2007

## BƏS NƏ EDİM

Ruhlara qəfəsdəki quş deməyim, bəs nə edim?
Dünyanın batininə leş deməyim, bəs nə edim?

Tutalım qol atıram bu simü-zər dünyadə mən,
Binamaz, böylə yaza qış deməyim, bəs nə edim?

Varlı toxdu yatammayır, qonşu acdı yox yuxusu,
Belə ətdən ürəyə daş deməyim, bəs nə edim?

Kələklə, fırıldaqla dolduranda sandığını,
Qazancına gözdəki yaş deməyim, bəs nə edim?

Kimləri tərif edib, təzim edirsən "yal" üçün,
Yediyinə zəhrimar, zəy deməyim, bəs nə edim?

Hacı, yavan çörəyə qane olub eylə şükür,
Bu cür halal çörəyə "nuş" deməyim, bəs nə edim?

23 avqust 2007

## EYLƏDİN

Ey o zat ki, bircə “kun”la aləmi var eylədin,
Fironu lərzəyə saldın, əsanı mar eylədin.

Təqvanı tuşə edənlər oldu sultan cahana,
Nəfsinə əsir olanı zəlili-xar eylədin.

Kim ki, məqsudin dərk etdi, əl atdı dərgahinə,
Yapışdın onun əlindən eşqə dildar eylədin!

Bircə “Bismillah”ə heyvan ləhmi pak olur tamam,
Şəhidi pak, küfr əhlini rics-murdar eylədin.

İbrətə bax, bu dünyanı hər kəsə etdin geniş,
Axirəti möminə gen, kafirə dar eylədin.

Məhşərdə şad oldu alan sağ ələ naməsini,
Sol əlinə alan kəsin işin ah-zar eylədin.

Yetimin, məzlumun haqqın yeyənlərin evini,
Döndərdin bir viranəyə əcəb tar-mar eylədin.

Sənin mərhəmətinədir Hacının tək ümidi,
Quranda var müstəzəfi sonda sərdar eylədin.

# VAR

Hər insanın öz şuarı, öz inancı, nidası var,
Hər döyünən saf ürəyin ülvi, təmiz sevdası var.

Hər bəndənin öz ülgüsü, könül şahı, dildadəsi,
Yəhudinin Musası var, Məsihinin İsası var.

Bir ümmətin Asiyəsi, bir ümmətin də Məryəmi,
Müsəlmanın can sədası Fatimeyi-Zəhrası var.

Böylə şərəf tarixlərdə nəsib olmayıb kimsəyə,
Son ümmətin peyğəmbəri, Rəsuli-Mustəfası var.

Qəhrəmanlıq kitabında hər millətin izin gördüm,
Din-İslamın tarixində Hüseynin Kərbəlası var.

Haqdan danışan bişumar, nura çağıran bişumar,
Bizlərin də pirlər-piri Əliyyəl-Murtəzası var.

Zəmanə qalmaz imamsız, ey dil, dərk et imamını,
Hacının həsrət çəkdiyi qürbətdə bir Mövlası var.

13 oktyabr 2007

# GƏL

Ey yol azmış, zülmət içrə dərgahi-valayə gəl,
Aləmlərə eylə nəzər, Əsmaul-hüsnaya gəl.

Gər istəsən seyr etməyə nuri-təcəllanı sən,
Qop dünyanın buxovundan, xaki-müsəllayə gəl.

Ömrünü vermə hədərə, bil qənimət hər anı,
Eylə ibadətdə merac, Məscidül-Əqsayə gəl.

Aləm sənə səcdə etdi, sən də baş əy Rəhmana,
Gecə-gündüz münacat et, tövbəyə-harayə gəl.

Hər şeyin öz təriqi var, eşqin də öz yolu var,
Əliyə eylə təvəssül, məhzəri-kübrayə gəl.

Bəndəçilik məqamında Əliyə kim tay olar,
"Vüsal", "fəna"ya çatmağa, məclisi Mövlayə gəl.

Hacı, eşqi-həqiqini həqqən bilmək istəsən,
Üz tut İraq torpağına dəşti-Kərbəlayə gəl.

13 oktyabr 2007



# AĞLATDILAR

Ağla, ey göz, əzəl gündən vicdanı ağlatdılar,
Qardaş tökdü qardaş qanı Həvvanı ağlatdılar.

Musaya, Haruna əvvəl nə qəmlər çəkdirdilər,
Məryəmə böhtan dedilər, İsanı ağlatdılar.

On bir qardaş həsəd edib Yusifə zülm etdilər,
Yaqub kimi peyğəmbəri-Kənanı ağlatdılar.

Son nəbiyə – səlli əla Muhəmməd söyləyənlər,
Əhli-beytinə zülm edib ol canı ağlatdılar.

Yetimlərə çörək verən, məzluma dildar çıxan,
Ədalətin özü olan Mövlanı ağlatdılar.

Haqqı əlindən qapılan Əliyə qahmar çıxan,
Peyğəmbərin can parası Zəhranı ağlatdılar.

Oğul, qardaş, yar-yoldaşı qanə batdı önündə,
Əhli-nifaq Hüseyn kimi sultanı ağlatdılar.

Sonda Abbas kimi qardaş şəhid oldu təşnələb,
Əhli-nisyan yer üzünü, səmanı ağlatdılar.

Ol əziz Zəhra balası Hüseyni qətl etdilər,
Teştdə başın göstərib, Kübranı ağlatdılar.

Əziz qardaş, çox da demə mən imam əsgəriyəm,
Çoxu öz işiylə İmam Zamanı ağlatdılar.

Hacı, şükr ki, yer üzü yaxşıdan xali deyil,
Möminlər var, əməliylə şeytanı ağlatdılar.

1 fevral 2008

# SƏN

Ey könül, əğyarə baxma, üz gətir Sübhanə sən!
Xoş halına ürək versən, ol Qadir Yəzdanə sən!

Bir zaman etmədi səcdə Adəmə İblis-ləin,
Bu gün niyə baş əyirsən, ol xain Şeytanə sən?

Arif olsan, cənnəti-nar, olmaz səcdə səbəbin,
Əli deyib – Odur layiq, səcdə et Rəhmanə sən.

Nəfs adlı güclü rəqiblə girməmiş döyüşlərə,
Təvəkkül et ol Xudayə, sonra çıx meydanə sən.

Haqqa görə hər nəyindən keşmiş mərd gəzsən əgər,
Kərbəlada bax Hüseynə – ol böyük qurbanə sən.

Vadiyi-eşq niyyətiylə mürşidi-rah istəsən,
Üz tut ariflər şahına, ol Şahi-Mərdanə sən.

Əli babi-mərifətdir, Odur Haqqın qapısı,
Onsuz yol tapa bilməzsən batini-Quranə sən.

Rizvan, Əli eşqi əgər nur versə can evinə,
Bil ki, dünyada qovuşdun cənnəti-rizvanə sən.

# MÖVLASINA

Ey ürək, aç gözlərini bu şəmsin ziyasına,
Məzhər oldu Əli həqqin Əsmaul-hüsnasına.

Əlinin eşqini duyan qəlbini verməz əsla,
Bu dünyanın altınına, ləzzəti-həlvasına.

Əlidir kovneynin nuru, bu sirri bilən gündən,
Göz dikmişəm ol mövlanın bir xeyir-duasına.

Əlinin gül bağçasından ayrı düşmüş bülbüləm,
Ya Rəbb, qovuşdur bəndəni öz uca sevdasına.

Behiştim, Firdovsi-əlam Əlisiz qəm evidir,
Baxmaram gözün ucuyla cənnətin bağçasına.

Hər kəsin öz cananı var, qəlbini vermiş ona,
Rizvanın ruhu fədadır öz Əli Mövlasına.

# ƏVVƏL

Sübh açıldı, dan söküldü, quş oyandı güldən əvvəl,
İlham çağladı sinəmdə, coşdu söz qəzəldən əvvəl.

Ömür qatarı durnatək, dedim keçir yavaş-yavaş,
Saat, günlər əriyərək haray salır ildən əvvəl.

Günəşin şəfəq şüası sığal çəkməmiş yerlərə,
Dan ulduzu asimanda doğdu sarıteldən əvvəl.

Dedim bu bir işarətdir, şükür olsun Xaliqimə,
Bir dağ çayı coşub-daşar çən bürümüş göldən əvvəl.

Daha dözmək necə çətin, yarın fərağında, ya Rəbb,
Göz yaşardı, qəlb közərdi, diz büküldü beldən əvvəl.

Sən ey zühur arzusunda yanan könlüm, sevin artıq,
Seyid Ruhulla eylədi qiyam ol Zühaldan əvvəl.

Ya Rəbb, Seyidin çöhrəsin görmək oldu mənə nəsib,
Rizvan deyir: ol Mehdini göstər mənə gildən əvvəl.



# ŞEİR

Şeir var – içi boş, üzsüz süddən də betər,
Şeir var – sözü ox – qayım daşdan da keçər.

Şeir var – nehrədə çalxanmış yağdan ləziz ,
Şeir var – bal kimi, xalis-dəhanda itər.

Şeir var – dərmandır, dadı olsa da acı,
Şeir var – günəştək, nuru hamıya yetər.

Şeir var – ömrünə bərəkət verər Allah,
Şeir var – yaşamaz, müəllifiylə ölər.

Şeir var – yazanın başına bir tac olar,
Rizvan da gün olar, başında bir tac gələr.

2017

# GƏLDİ

Bu gecə könül gülüstanına bir yar gəldi,
Soyuq-şaxtalı zimistan bitdi, bahar gəldi.

Gül üzün çevirdi gülə, eyləyərək göz-qaş,
Bunu gördü bülbül, ona gen dünya dar gəldi.

Nə zamandır səba yelindən gəlməyirdi səs,
Şükür açıldı iqbal, nameyi-eşqbar gəldi.

Az qala çıxmış bilirdim adımı dəftərdən,
Amma tirə gecədən sonra bir səhər gəldi.

Hər fürsət cəhd edirdim görəm rəna boyunu,
Bağında müsafir olmağa bir tumar gəldi.

Qurumuş bağ idin, Rizvan, can gəldi cisminə,
Çiçək açdı arzuların, könlünə bar gəldi.

03.03.2012

# İSTƏ TƏBİBLƏR ŞAHINDAN

Ey könül, eşqin dolandır sevdayi-ərziyyədən,
Usanmadınmı, əcəba, xəyalat-fərziyyədən?

Musiqinin haramından eylə pəhriz, dur uzaq,
Can quşun feyziyab eylə, rovzeyi-mərsiyyədən.

Vallahi, dünyanın ömrü qısadır, düşün dərin,
İstərsən gər nicat yolun istə gəl “Feyziyyə”dən.

Divarı təqva gilindən, səqfi irfan şəcəri,
Bir ocaq var Ali-Subhan, özləri insiyyədən.

Əsli – gövdəsi Müstəfa, şaxəsi bir cüt günəş,
İsmi təşkildir Əlidən, Nisayi-Raziyyədən.

Dərdini bilən mərizsən, təbibin tap, bul dəva,
İstə təbiblər şahından, Zəhrayi-Mərziyyədən.

Hacı Rizvan, ürəyində bəllidir eşq ünvanın,
Qafil olma əvvəl vəqti namazi yövmiyyədən.

29 avqust 2014

# Nicat gəmisi

## (mənsur şeirlər)

# “Lal”ın dilini anlayanı axtarıram

***(mənsur seir)***

Görəsən hamı söyləyə bilirmi arzusunu, dərdini, kədərini?!

Yoxsa dərdin yükündən susqunamı dönür insan cox vaxt?

Üzərində varlıqlar yaranandan bəri “lal” torpağın şikayətini, ondakı cadar-cadar xətlərin ağrısını biləni  axtarıram...

Gözlərində arzuları donmuş yetim uşağın hönkürtü yaradacaq ilticasını anlayanı axtarıram.

Yuvasız qalmış quşun tənhalıq naləsini şərh edəni axtarıram.

Şəhidlərin mübarək çöhrəsindəki sirli təbəssümün mənasını axtarıram.

İllərlə tərk edib getmiş oğlunun xiffətini çəkən ananın, yollara dikilmiş baxışlarındakı qüssənin anlamını axtarıram...

Gecələr yuxuları gözlərdən qaçıran eşqin aşiqdən yüksəltdiyi naləsini, münacatda göylərə yönəlmiş əllərin titrəkliyinin həyəcanını, yanaqlardan

səccadəyə düşən vüsal gilələrinin saflığındakı aləmi axtarıram...

Ağarmış saqqalın müdrikliyini, "Ya Rəbb", "Ya Rəbb" deyə inləyən eşq yolçusunun sadiqanə harayını axtarıram...

Lərzan çiyinlərin, pıçıldayan dodaqların "zələmtu nəfsi" zümzüməsini, ilticasını axtarıram... axtarıram...

Cahilin çox bilmiş iddiaları önündə susan müdriklərin gözlərindəki dərdlərin izahını axtarıram...

"Bülbül"ü susduran "qarğa"nın nə zaman susacağı zamanı axtarıram...

Atanın naxələf övlada deyə bilmədiyi sözünü, çin olmayan arzularını axtarıram...

Keçmişə baxıb ibrət götürəni, boş sözə məhəl qoymayıb ötürəni, ortadan ancaq oz haqqını götürəni axtarıram...

Özünü itirəni, özünü itirdiyini biləni, itirdiyini axtaranı axtarıram...

Mən palitrama baxıram... Orada haqqın rəngini, ədalətin çalarını, sevginin harmoniyasını axtarıram...

Gözlərdə çoxdan itib getmiş təmənnasız, səmimi baxışları axtarıram...

Xalçalarda-kilimlərdə təbii rəngləri, bir aləm məna yüklü naxışları, assimmetriyanı axtarıram...

Xocalının dərdini çözəni, Qarabağın, Abxaziyanın, Fələstinin düyününü açanı axtarıram...

Zalimi zülmünə görə peşman edəni, möhtəkiri anbarına, sələmçini bankına, siyasətçini yalanına gorə bəndə salacaq kəsi axtarıram...

Günahsızı zindana, günahkarı gülüstana salanı... zindana salacaq insanı axtarıram…

Yalansız televiziya kanalı, radio dalğası, internet saytı, gözlərə baxıb yalan danışmayan aparıcı axtarıram…

Mən qurtuluş bayrağı, Nicat Gəmisi axtarıram.

Mən bəşəriyyətin minillik xəstəliklərdən tabdan düşmüş vücudunun şəfasını, şəfa verənini axtarıram…

Mən nə qədər axtaracam, İlahi! Daim axtarıram, axtarıram, axtarıram...

Mən haqq-ədalətlə dolacaq zamanı...
Hər kəsin öz haqqını alacaq zamanı...
Hər şeyin öz yerində olacaq zamanı...
Zalimlərin qurğusunu qıracaq zamanı...
Mən... İmam Mehdi-Sahibəzzamanı axtarıram!..

11.02.2017

## Hədis dərsi

***(mənsur şeir)***

Qalə Rəsulullah (s), qaləl-Məsum (ə) nidaları çatdı bizə zalımlərin yasaqlarından sonra.

Qulaqlarımıza zorla tıxanmışdı qadağa tıxacları, gözlərimiz ilhad məzmunlu kitablardan, şüarlardan, lövhələrdən artıq doymuş, usanmışdı.

Dil öz xilqət sözündən uzaq, məqsəd Kəlamından xali idi.

Yazıq və zavallı bir boş qutu misalı insan vücudu, biçarə Şura hökuməti vətəndaşı…

Həzrəti Hüseynin, Abbasın adı gecələr şam işığında, küçələrdə gözətçilər qoymaqla yad edilirdi…

O zamanlar kimsə hədisi mədrəsədə kitabdan öyrənirdi, biz isə həyatdan. Biz həyat hədislərini Peyğəmbər (s) kəlamlarında gördükdə "Sədəqər-Rəsul (ə)" dedik, hədisi kitabdan öyrənən, həyatda təsdiqini gördükdə "Sədəqər-Rəsul (s)" söylədi.

Haqq nazildi, üzülmədi…

Quranı toz basdı, unudulmadı..

70 il dünyanın sərvəti, silahı ilə dərdlərimiz çözülmədi… əksinə, artdı, çoxaldı.

Budur, azadlıq, nicat, sərbəstlik gəldi. Nəhayət, rəhmət nəsimi əsdi üzümüzə, səhər günəşinin şəfəqləri nur verdi gözümüzə, işıq saldı izimizə…

Döndük arxaya baxdıq, dərdlə, sonsuz iztirab, nifrət və kədərlə… bir daha dönməmək düşüncəsilə, bir günahsız məhbusun azad olunduğu həbsxanaya baxdığı kimi…

Şükr etdik Tanrıya!

Açılan sabaha, işıqlı gələcəyə, son ümidin sonuncu məsumuna (ə), xilaskarına görə…

Nə yaxşı ki, Zühurun bəşarəti bəxş olundu bizlərə, müstəzəflərin arzusunun çin olacağı arzular çələngitək!..

Dünyanın gərdişinə bax ki, ayaq baş yerində, baş daş yerində qərar tutmuşdu, göz yaşı daşa, divara hopmuşdu, hər şey tərsinə axırdı, xalq rəhbərə məbud gözüylə baxırdı, qırmızı qalstuk taxırdı.

Mələklər bu nizamsız nizama öz ahlarıyla şimşək çaxırdılar.

Xaliqə həmd olsun saysız-hesabsız! Hər şey bitti, qurulan dağıldı, sağılan soğuldu, köhnələr boğuldu, yenilər doğuldu, ərsəyə çatdı.

Az qaldı o günə ki, hər şey öz yerini tapsın, möminlər O gül qədəmlərdən öpsün, oxşasın, qəlblər öz

əzəli gücünü əldə etsin… Tezliklə, tezliklə olacaq o gün, gələcəyinə heç bir şübhə yoxdur.

Çünki vədinə sadiqin vədidir bu, Tanrının öz bəndələrinə müjdəsidir bu.

Bu vəd hər sözü haqq olan Haqqın sözüdür!..

17.04.2011



## Ürək

***(mənsur şeir)***

Öz yumruğun boyda bir ət parçası köksündə gecə-gündüz döyünür, vurnuxur, həm sənin, həm özünün varlığını qoruyur.

Bu ət parçasının maddi varlığı "ürək" adlanır. O, bədənin bütün guşə və orqanlarına qana yüklənmiş həyati maddələri damarlar vasitəsilə çatdırır, təmin edir. Təbiblərin nəzərincə: *ürək –yəni bu!*

Hər sözün maddı şəkli olduğu kimi onun mahiyyətində bir gözəgörünməz məna yaşayır. Ürəyin də mənası var, Qəlb – ürəyin mənası və canıdır. Bədənin mənası ruh olan kimi.

…Ürəyin damar və əzələlərində tromb və sairədən tıxanmalar əmələ gəlir, ürək xəstələnir, zəifləyir, sonda ürək öz vəzifəsini yerinə yetirə bilmir – ölür.

Bəs qəlb?! Qəlb nə zaman ölür? Ümumiyyətlə, qəlbi danışdırsaq, əcəba, bizə nələr söyləyər görəsən?

Bəlkə onun da nifrət etdiyi, ya da sevdiyi şeylər var, gəlin soruşaq ondan birlikdə!

Aldı görək qəlb nə dedi:

– Ey Adəm oğlu, mən qəlbəm, hər birinizin sinənizdə döyünənin canı, mənası və mahiyyətiyəm.

Mən – bir evəm, bir neçə qapılarım, öz əhli-əyalım var, sizə deyiləsi çox sözüm var, ey insanlar, indi ki, fürsət düşdü, çoxdan yığılıb düyünlənmiş sözlərimi söyləyəcəm sizlərə.

Bilin və agah olun:

– Mən sevgi və məhəbbət məkanıyam, nifrət, qəzəb və kinə "zibil" qabı deyiləm.

Mən – yalnız Allahın təcəllisinin, onun razı qaldıqlarının eviyəm, İblisin və dostlarının yox!

Mən – şəhvət və ehtiras dolu fikirlərin məkanı deyiləm, əksinə, iman və təqvanın yeriyəm.

Mənim qeyrətli gözətçiyə ehtiyacım var, çünki ətrafımda dolaşan çox "oğrular" var.

Mən – vicdanın özüyəm, zülm görəndə ağrıyar, haqq görəndə fərəhlənərəm.

Mən – sinənizdə gəzdirdiyiniz "Kəbəyəm", təvaf yeriyəm.

Mən – mələklər üçün hava limanı, eniş və yüksəliş məkanıyam.

Mən – sevginin tükənməz "Zəmzəm" bulağıyam, bəşəriyyətin dərdlərinə məlhəm, mərəzlərinə dərman mənbəyi…

Ey insanlar! Məni qoruyun, mən də sizi qoruyum, məni pak saxlayın ki, sizləri təmizləyə bilim, məni süsləyib bəzəyin ki, sizə zinət olum!

Xülasə, məni yaşadın ki, öz varlığınızı qoruyasınız.

Xarabanın sakinləri – bayquşlar, gülüstanın əhli bülbül olar. Gül gülləni zərərsizləşdirər, şəfqətli söz – şilləni…

Mən – sizin nicat yolunuzam, tufanda mayakınız, yixilanda qaldıran qolunuzam…

Mən – qəlbəm, qəlp yox!

Divlərin dəvəsi, iblisin gəvəsi etməyin məni…

Çırağım nur, divarım məhəbbət, tavanım eşq, döşəməm şəfqətdir, havam təqva, bəzəyim imandır…

Nur alın ki, işıq verim sizə…

Nurlandırın məni, əməllərinizin saleh olması üçün.

Çiçəyin açılması bahar günəşinin isti və şəfqətinə möhtacdır, mənim baharım nifrət və kin xəzanı, küfr və nifaq "qış"ından sonra gələr…

Əridin şərin buzunu…

Dəlin küfrün üzünü…

Silin batilin sözünü…

Kor edin şeytanın gözünü…
Paralayın zülmün astar-üzünü…
Çəkin ədalətin, haqqın nazını…
Toplayıb atın yalanın çoxunu, azını…
Günah oxlarına tuş etməyin zərif vücudumu…
Yaralamayın məni… çünki yaram çox dərin olur, dözülməz ağrı-acı, əzab verir mənə...

Məni qaraltmayın, qaram üzünüzə çıxar, çöhrəniz olar bulanıq su, tozlu palaz, dərilmiş və solğun güldan çiçəyi…

Yerim sinə də olsa, başa çıxardın, ağıla, gözə qonşu eyləyin məni, uca tutun ki, ucaldım sizi.

Mən özümə bahar istəyirəm, sizə Novruz olmaq üçün…

"Qış"ı pozun, "yaz"ı yazın mənə, sizin yayınız olmağım üçün…

Məni qoruyun! Məni qoruyun! Məni qoruyun!..

2011

## Düşüncələr...

- ❖ Dünya və axirətin dəyəri öz ömürləri qədərdir.

- ❖ Yaxşı əməl – səmərəli məhsul,
  Səbr – bu məhsulun karvanı,
  İradə – sarbanıdır…

- ❖ Bəzi insanlar var ki, süni peyk kimidirlər – yerin orbitində fırlanırlar,
  Bu, ən aşağı mərhələdir insançün (dünya-pərəstliyin ən aşağı dərəcəsi).

  Bəzi insanlar Ayın Yerin dövrəsinə dolanması kimidir (təbii peyk).
  Bəzən insan Yer boyda olur – Günəşin dövrəsinə fırlanır.

  Bəzi insanlar Günəşdir, kəhkəşanın mərkəzi ətrafında dövrə vurur və özünün işığı var (bunun da eybi yoxdur, amma ali məqsədi dərk etməyib).

  Amma bəzi insanlar da var ki, nə günəşdir, nə kəhkəşan, onlar Əli (ə) buyurduğu kimi bir kainatdırlar və yalnız Tanrının "başına" dolanırlar.
  Bunlar həqiqəti dərk edib və ona ibadət edərək qovuşan kimsələrdir.

- İnsanın gördüyü hər bir əməl, danışdığı hər söz öz leyhinə və ya əleyhinə toplanmış dəlillər məcmuəsidir...

- Hər bir insan öz daxilində mənfi insan obrazı yarada bilər, lakin bilməlidir ki, həyat "filmində" belə personajlar daim ölümə məhkumdurlar.



## Mən

Mən – bir isti soba olmaq istərdim soyuq otaqda...

Mən – anasını varlığıyla sevən çağa olmaq istərdim qucaqda...

Mən – sahildə tufanlı dənizdən sahilə baxan gəmi yolçularını qarşılayan adamın sevinci olmaq istərdim...

Öz toyunu səbirsizliklə gözləyən cavan olmaq istərdim...

Sinənin darlıq etdiyi sevən ürək olmaq istərdim...

Yetim körpənin başına sığal çəkən əl olmaq istərdim...

Həzrət Əlinin(ə) göz yaşlarının damcıladığı Mədinə bağlarının torpağı olmaq istərdim...

Mən "özüm" adlı itkisini tapanlardan olmaq istərdim...

İtiklərin ən dəyərlisini tapanların xoşbəxt anı olmaq istərdim...

2012.03.03

# Dünya

***(mənsur seir)***

Ey gidi dünya!

Yer kürəsi, girdə planet!

Kimi üçün futbol topu,

Kimi də dünyanın futbol topu.

Ən başlıcası, bəzilərinə isti-cırcıramada sərin qarpız..

Bəzilərinə isə məğlubiyyətdə səmtsiz dəymiş ağır və yumru toppuz...

Dünya – dən deyil, don da deyil, gen də deyil.

Bəzən yumruq – bir dünya məna,

Bəzən dünyada bir yumruğun mənası yox...

Dünya altdan geyilmiş cod yundan toxunulan köynəkdir əslində; onu geyəni incidər, sahibi bir an da olsun dalamasını unuda bilməz.

Əldə tutsan yuxuya gedəndə yerə düşüb sınar, şüşə şar kimi,

Qulaqdan assan səsindən başqa sözləri eşidə bilməzsən.

Çeynəməsən udmaq olmaz alma kimi.

Dünya – bəzən şeytansifətlər tərəfindən şişirdilmiş və parıldayaraq havada uçan sabun köpüyüdür.

Etibarsız ömrü qısa...

Bəziləri dünya üçün hiyləgərcə sapa bağlanmış oyuncaq arxasınca qaçan uşaq kimi...

Bəzi adamlar isə dünyanın ovçu köpəyidir.

Buğda, arpa kəpəyidir:

Dünya tövləsinin yemidir.

Dünya – tərsinə işləyən sayğacdır...

Kompassız gəmidir,

Səni-məni bir meridianda fırladır karusel kimi.

Əslində dünya atdır: İmam Hüseynin (ə) dəstəsində, yaxud Yezid ordusunda olan süvarinin mindiyi at; kimi mindi – yandı, kimi də mindi – qandı, qazandı,

Dünya iynə ildızından nazik, tapdaq altda qalmış qarışqa yuvası...

Payız yarpağı...

Çeynənmiş qarğıdalı sapağı, dilənçi paltarı...

Şimşək kimi ömrü qısa...

Nə kişi, nə də üzü tüksüz kosa!

...Hədisdə deyilənin bənzəri: “üç dəfə boşanmış arvad”...

03.03.2013


10596

## Daşlar

Başdaşından baxan şəkil kimi baxdın üzümə.
Dinləmək istədim bir gün daşların söhbətini,
Onların aləminə varmaq üçün.
Nələr bilir bu daşlar, nələr!..
Tarixin gizli cinayətlərini özündə yazmış daşlar!
Hərəsi də Novruzda suya niyyət edib bəxtini sınamaq istəyən qızların bəxti kimi.
Bəzisi məsciddə döşəmə oldu – xoşbəxt oldu,
Bəzisi də diktator və zalımların qəbrinə başdaşı...

## Mənalı söz

Mənalı söz – toxunmuş heyrətamiz xovlu, butalı xalça,
Susuzları sirab edən sərin çeşmə suyu dolusu dolça!

Hikmət – dirilərin nəfəsi,
Ölülərin "ya Allah" – deyib dirilən səsi!

Alim – şoran torpaqda bağ salan bağban,
Cahil – yaşıl meşəni külə döndərən şalğam!

Mömin – Tanrının insanda ucalan sözü,
Fasiq – şeytanın bədəndə parlayan gözü!

Arif – doyunca səhrada su bulmuş təşnə!
Kafir – ömrünü ağasını tanımamaqda itirmiş axmaq!

Əli – Şəhərin qibləsi!
Yezid – göbəyin ətrafının köləsi!

Fatimə – anaların göz yaşlarının ümmanı,
Həmmalətəl-hətəb – aydın görünən yolun dumanı...

Rizvanın ilham pərisi – məhbəs qapısının açarı!
Qəlbi olanlara sevgi dolu məktublar çaparı...

## Vətənə dönmək

***(mənsur şeir)***

Mən Allahla aramı düzəltmək istəyirəm...

Mən özümə dönmək istəyirəm, özümə baxmaq istəyirəm.

Mən bir İlahi ayna olmaq istəyirəm,

Öz aynamda Tanrıya baxmaq istəyirəm.

Yanmış, yıxılmlş körpüləri bərpa etməliyəm dönüb geriyə, yəni irəliyə getməliyəm!

Bəzən "irəli" əsildən uzaqlaşmaq olur...

Geri dönmək özünə dönməksə, özüm arxada qalmışam hisslərim gedib irəli...

Sabah uçurumdursa, dünəndə qalmaq daha faydalıdır mənə.

"Yuxarı" həndəsi deyil, mənəvi anlamda ucalıqdır,

İçimdən ucalmaq istəyirəm, içdən mələkuta, Lahuta, Ərşə, Kürsə nur nərdivanı axtarıram...

Ürək yoludur bu yeddi mərtəbəli, yüz pilləkənli...

Bir kamil-mahir alpər Dağlar fatehi axtarıram mərifət çıraqlı...

Özünü tapmış bir nurlu sima, piri muğan...

O, məni daha tez bu namüəyyənlik torundan qurtara bilər...

...Özündən bixəbər kütləsi, yığını: hər gün öz xəbərindən qeyri bütün xəbərləri oxuyan cəmiyyət...

Mən bu kutlədən daxilən təcrid olmaq istəyirəm...

Mən – özüm olmaq istəyirəm...

Özüm özümdə özüm olmaq istəyirəm, Zülfiqar öz qınında olduğu kimi...

Özümdə onu görmək istəyirəm...

Mən Allahla aramı düzəltmək istəyirəm,

Özüm öz vətəniməm mən,

Öz "Vətənim"ə dönmək istəyirəm.

İtiyi olmaq nə yaman şeymiş ilahi, özünü itirmək yamanın-yamanı...

Hamının itəni tapılsın, Allah, içində də mənim.

Hamının itkini "Vətən"ə dönsün, içində də mənimki.

Mən... "Vətənim"ə dönmək istəyirəm...

2017.01.28

# Torpaq

Torpaq – ümid, torpaq – həsrət,
Torpaq itirən çəkər xiffət.
Torpağı ək, çək halal zəhmət;
Torpaq – ruzi, halal qismət.

Torpaq – Adəm, torpaq – Həvva,
Torpaqda gizlənib qeybi-qüvvə.
Torpaq – əvvəl, torpaq – axır,
Torpaq – beşik, torpaq – qəbir.
Torpaq – şərəf, hikmət, məna,
Torpaq – vətən, əziz ana.
Torpaq – Şuşa, Ağdam, Laçın,
Yuxumuz da olmayır çin.
Torpaq satan oldu xain.
Xainlər tarixdə oldu lənin.
"Vətəni sevmək imandandır!" –
Buyurdu ol uca Peyğəmbər.
Torpaq – döyüş, torpaq – dava,
Torpaq – ciyər, ürək, hava.

Qürbətdə dərk edir insan qədrini,
Torpaqdı hər dərdə məlhəm, dəva...
İnsan da, heyvan da bitki kimi
Torpaqdan cücərib bitir sanki.
Torpaq doğur halal, pak-pakizə,
İnsansa küfr edir hər ləhzə.
Torpaq – meydan, torpaq – səhnə,
Torpaq – imtahandır: təzə, köhnə...
Torpaqdır Allaha səcdə qılınan yer,
Namaz qıl, xaliqin borcunu ver,
Sev qara torpağı – son evindir.
Sev vətən mülkünü Tanrı üçün.
Torpaq – şəhid üçün rahat yataqdır,
Yezidlər üçün zindan-otaqdır.
Kimilər üstündə halal aş yeyir,
Digəri qan tökür, günahsız baş yeyir.
...Torpaq şəhid qanından azadlıq adlı
Qırmızı rəngli gül bitirir.
Yüksəlir o gülün ləçəkləri
Qonur o millətin qəlbinə,
Gözünə, bayrağına.
Namərdləri isə çürüdərək eyləyir kül,

Silir özünün qan yaddaşından.
Şərəfdə Kərbəla torpağı oldu ən uca,
72 şəhid bu torpağın əlini çatdırdı taca.
Şəhidin qanı simü-zər eylər:
Torpağı nurlandırar, 14 gecəlik qəmər eylər.
Torpaq – bu dünyanın qapısıdır,
Torpaq – axirətin qapısıdır.
Yer kürəsi toxunmuş bir barama torudur sanki:
Kimi qanad açaraq uçub gedir
kamil zirvəyə qovuşmaq üçün.
Kimiyə qəfəs olur:
boğur, kəsir nəfəsini, öldürür.
Torpaq – Qarabağ, torpaq – vətən,
Vətən səsləyir: gey kəfən.
Vətən – bir qartal, qanadı düşmən əlində.
Zirvəyə qonmuş Azərbaycan adlı bu qartalın da
Səmaya yüksəlmək kimi diləyi, arzusu var.
Qanad qan saçır...
Xain qonşu qanı qətrə-qətrə içir.
Ey mərdlərin mərdanə oğlu! –
Bu Qarabağ adlı sınmış qanadı

Qaytar birləşsin,
Can tamamlansın:
Azad olsun şanlı qartalın Qarabağı;
Düşmən köksünə çək qara dağı...
Məğrurdur qartal
Çatılsa da qaşı.
Əyilmir, büzüşüb tökmür göz yaşı.
Keçmişdə yadlardan çox bəlalar çəkdi başı,
İgidlərdən soraq verir hər qayası, daşı...
Bil: səni gözləyir məğrur qartal;
Qartal simalı bu ana vətən,
Bu ulu torpaq...

31. 05. 2009



# Fatimənin (ə) gülləri

*(Həzrəti Rüqəyyənin (ə) pak ruhuna, onun timsalında cəmi körpə qızların zərif varlığına, qızlarım Zəhra və Əsmaya ithaf edirəm)*

Anam məni öz bağrının üstündə xırda toxum şəklində böyüdüb bəsləmişdi. O özü, baharın əvvəllərində cücərib boy atsa da mən demək olar ki, baharın ortalarında dünyaya gəlmişdim. Anamın nazənin və mütənasib ləçək qollarının nizamlı əhatəsində, onun sinəsindən ətrafa yayılan rayihəli və məstedici ətirli qoxularının əhatəsində gözəl günlər keçirirdim. Qısa da olsa, gözəl və qayğısız günlər yaşayırdım. Gecənin soyuqluğu bir qədər üşütsə də, sübhün məlahətli nəsimi səhərin gəlişindən xəbərdar edir, əlləri ilə anamı və məni oxşayır, şirin yuxudan oyadırdı. Dodaqlarıma qonmuş sübhün şəffaf və büllur şəbnəmləri mənə şərbət kimi gəlir, sirab edirdi. İlahi, nə ləziz şərbət idi! Yeni doğmaqda olan günəş oynaq şəfəqləri ilə mənimlə zarafatlaşır, məni güldürürdü. Mənə nə qədər nəvaziş göstərirdi, ilahi!

Mənim anam bir kəndin yaxınlığında bitmişdi, deyəsən bir yol kənarı idi, maşınlar çox az gəl-get

etsə də at və ulaq arabaları, səhər əkinlərinə tələsən əkinçilər, gəzintiyə çıxan ailələr daha çox hərəkət edirdi bu yolda. Anamın boyu qısa olduğuna görə nə qədər çalışsam da boylanıb yuxarıdan o kəndə baxa bilmirdim. Amma çox arzulayırdım o kəndi görməyi... Bunun bir səbəbi vardı: o da bu idi ki, hər səhərin açılmasını o kənddən ucalan azan səsindən anlayırdım və müəzzinin məlahətli sədalarına yuxudan oyanırdım. Nə xöşbəxt adam idi bu müəzzin, Allah ona nə gözəl səs bəxş etmişdi! Hərdən mən də anamla birlikdə ona qoşulub azan oxuyurduq, sonra Tanrıya zikrlər edirdik, bəli, bəli, siz insanlara bəlkə də bu təəccüblü görünür. Bizim də öz dilimiz var, danışırıq. Sizlərdən çox az insan bizləri eşidib dərk edə bilirlər, yalnız içərinizdəki əsl Allah adamları – övliyalar bizi başa düşürlər, bizlər onları sevirik, həm də çox yaxşı tanıyırıq, amma sizlər yox. Allah onları sizlərə gizli saxlayır...

Hiss edirik ki, yanımızdan keçən adamlar səsimizi eşitmirlər, biz onları yalnız öz gözəl rənglərimiz və gözəl ətrimizlə cəlb edirdik. Bir dəfə günorta vaxtı deyib gülə-gülə yoldan keçən bir nişanlı oğlanla qız bizə yaxınlaşdı. Onları anamın

təravətli və məxməri ləçəkləri cəlb etmişdi. Hər ikisi bizə lap yaxınlaşdı.

– Ay Allah, nə qədər gözəl çiçəkdir! – deyib əvvəl oğlan istədi ki, qızdan qabaq burnunu yaxınlaşdırıb ətrimizi qoxulasın, açığı, istəmədim belə olsun, dedim ki, ey kaş, əvvəlcə bu xırdaca qız gəlib ətrimizi qoxulayaydı.

Elə belə də oldu, qız çox zirək qız imiş, zarafatla nişanlısını itələyib dedi:

– Şahin, nə olar, qoy bu incə çiçəyi əvvəlcə mən qoxulayım.

Ətrimizi dərindən öz xırda burnuna çəkdi... Anam da mənim xətrimə öz ləçəklərini lap onun burnuna söykədi və qucaqladı...

Qız:

– Oxaay! – deyib sanki məst oldu. – İlahi, elə bil cənnət ətridir.

Bunu görən oğlan istədi ki, bizi dərib öz nişanlısına hədiyyə versin. Lakin qız razı olmadı:

– Şahin, görürsən ki, bu çiçəkdən burada necə azdır, həm də əlimizdə evə gedənə qədər solacaq. Tək biz deyilik ki, qoy başqaları da baxıb qoxulayaraq həzz alsınlar...

O kənddəki məscidi də çox görmək istəyirdim. Çünki bir dəfə yanımızdan keçən adamlardan eşitdim ki, bu məscid Həzrət Rüqəyyənin (ə) adınadır, İmam Hüseynin (ə) övladı o körpə və məsum qızın...

Orada namaz qılan uşaqları da çox görmək istəyirdim. Uşaqlardan daha çox qızlar məni cəlb edirdi, çünki mən özüm də anamın qızı idim axı.!

Yanımızda hər gün, hər saat bir gülün, bir çiçəyin solduğunu görürdük, bu bizə bir qüssə gətirirdi, kədərləndirirdi. Anamla mənim böyük arzumuz vardı, o da bu idi ki, kaş bizi, kimsə dərərək yaxınlıqda olan kənd məscidinə hədiyyə edəydi!.. Aradan bir-iki gün də keçdi, deyəsən sonumuz yaxınlaşırdı, ana-bala öz aramızda sonumuz haqda dərdləşərək aqibətimizi fikirləşirdik. Bir gün səhər vaxtı idi, bir də gördük ki, uşaqların gülüş səsləri eşidildi, səslərindən məlum olurdu ki, onlar getgedə bizə yaxınlaşırlar. Onların əksəriyyəti qız, bir neçəsi isə oğlan idi. Bizi və ətrafımızdakı çiçəkləri gördükdə onlardan biri sevinclə səsləndi:

– Ay Allah, nə gözəl güllərdir, bu gün məscidimizdə Xanım Fatimeyi-Zəhranın (s) ad günüdür, gəlin bu güllərdən bir neçə böyük çələng və

gül dəstələri düzəldək, bayramda iştirak edən analarımızı təbrik edib onlara təqdim edək. Bu təklif uşaqların hamısının ürəyindən oldu. Anamla mənim isə sevincimizin həddi-hüdudu yox idi. Biz eyni zamanda bir neçə arzumuza birlikdə çatırdıq: həm azan səslərini hər gün eşitdiyimiz məscidi, oradakı uşaqları görəcək, həm də analar anası Fatimənin (s) ad günündə iştirak edəcəkdik. Çəməndə bitən bir gül üçün bundan da böyük xöşbəxtlik ola bilərdimi!!!

...Uşaqlar məscidə əllərində güllər daxil olduqda bütün tədbirə toplaşanlar ayağa qalxdılar, salavat dedilər, şən ilahilər sədaları yüksəldi, hər tərəf gül-çiçəyə qərq oldu, biz güllər bir-birimizi qucaqlayıb təbrik edir, bu xöşbəxtliyi bizə nəsib edən Pərvərdigarımıza saysız şükürlər edirdik. Qadınlar bizi bağırlarına basıb dərindən qoxulayır, ətrimizi sinələrinə çəkirdilər...

Xöşbəxtliyə bax ki, biz çöldə bitən adi bir güldən birdən-birə Fatimənin güllərinə çevrildik!..

28. 04. 2011


AZADI
FREEDOM?
RIZAN

## Qartal yuvası

***(mənsur şeir)***

Gəl, qartal yuvası göstərim sənə...

Bu dünyanın ən uca zirvəsindədir bu yuva.

Hər yan ovucun içi kimi görünür buradan...

Buradan günəşin doğması da aydın görsənir, batması da...

Ayın doğması və batması da...

Padşahların gəlməsi də, getməsi də...

Buradan baxdıqda ulduzlar daha böyük və parlaqdır, sanki başının üstündən lampa kimi asılıblar...

Buradan məzlumların səsləri də daha yaxşı eşidilir...

Bura o qədər genişdir və azaddır ki, əsl "Azadlıq meydanı"dır, amma məcazi mənada...

Bura əsl azadlıq axtaranların meydanıdır ...

Bura şəhərlərin sözdə "Azadlıq meydanları" kimi deyil, dəyənək görməmiş azadələrin azad meydanıdır...

Gəl, qartal yuvası göstərim sənə...

Ən sərt qayaların lap ucunda... zirvəsində.

Ağac budaqlarından, kol çör-çöpündən hörülmüş olsa da bir qala mətanəti var bu yuvada.

...Amma... Onun əzəməti özündə deyil, sakinində, sahibindədir: qeyrət, vüqar və şücaət səciyyəli sahibində...

Bu yuva ən sürətli "küləklərə" , "qışın soyuğuna" , "yayın istisinə" tab gətirir... çünki orada qartal əyləşib, qartal balaları böyüyür orada, qartal tərbiyəsi görür onlar!

Gəl, qartal yuvası göstərim sənə...

Bu yuvaya heç kim yaxın düşə bilmir, qorxur...

Çünki onun sahibi sərt caynaqlı, iti dimdikli, qorxmaz bir varlıqdır.

Bu yuva onun vətənindədir... vətəndə isindiyi ocaq, sığındığı bucaqdır.

Bu yuva onun şərəf məkanıdır, əcdadlarının əsrlərlə dövrə vurub yaşadığı yerdir...

Bura çox ucadır, lakin hər yer aydınca görünür, çünki ətrafa, aşağılara baxan , diqqətlə seyr edən, iti, bəsirətli, tükü-tükdən seçən qartal baxışlarıdır...

Bu baxışlar hər şeyi ən xırda zərrəsinə qədər görür...

Gəl, qartal yuvası göstərim sənə...

Bu yuva "qartallar" üçün arzu, dilək yeridir, məqsəd nöqtəsi, ümid məkanıdır...

Bu yuva qartal olmaq istəyənlərə örnəkdir, yüksəliş simvoludur.

Bu yuva azadəliyin, hürriyyətin darülfünunudur, tədris ocağıdır, əyani kursudur.

Azadlıq dərsi qiyabilik sevməz, əyanidir, canlıdır.

Qartal hər gün əyani yaşayır, əyani görür, real yeyir, aşkar pərvaz edir...

Gəl, qartal yuvası göstərim sənə...

Onun sakini hara uçsa da, aşağılara ensə də, sonra yuvasına yüksələrək qayıdır. Bu yuva vətəndə bir ocaqdır, ocaqda bir vətən sevgisi.

Bu yuva yalnız yuvasını düşünüb vətənini unudanlara göz dağı, köz dağıdır, alovlu kösövdür.

Bu yuva vətənini yuvası üçün satanlara qırmanc zolağı, şallaq qançırıdır...

Bu yuva azad qartalların Vətən sevdası, qartalvarı nidasıdır...

Bu yuva hünər yuvası, ucalıq bürcüdür, nicat qalasıdır...

Bu azadələrin Azadlığa qovuşduğu qutsal bir məkandır...

Əslində Vətən buradan başlanır, bu yuvalardan vüqarla baxan vətən qartallarına görə vətən – Vətən olub!

Bu qartal ocaqları Vətəni qoruyur, ruhuna güc verir, mülkünü yaşadıb ona daim can verir...

Bu qartallar öz fədakarlıqları ilə adi torpağa ülvilik və müqəddəslik bəxş edir, ona şərəfli “Vətən” libası geyindirir.

Gəl, qartal yuvası göstərim sənə...

Gəl, əsl “Azadlıq Meydanı” göstərim sənə...

11.02.2017

## Tövbədən qabaq

***(mənsur şeir)***

Aynada özümə baxdım....
Çoxdandı belə zərgər diqqəti ilə
baxmamışdım özümə.
İlahi! Tövbə darağıyla çoxdandır
daranmırmış başım, suyuyla yuyulmurmuş üz-
gözüm...
Suçların izləri gözlərdən nəmi çəkibmiş xeyli
vaxtdır,
dönüblərmiş bir soğulmuş bulağa...
Üzüm – qurumuş, susuz bir səhra misallı,
tamam qırışlara bürünüb cadar-cadar...
Baxımsız saç-saqqal sanki sahibsiz bir evin
baxımsız bağçası görünümlü...
...Gözlərimi gözlərimin dərinliklərinə zillədim
aynada,
Öz içərimə boylanmaq istədim tam diqqətlə!
Ahhh... Nələrin şahidi oldum, nələrin...
Zavallı ruhum!
Məzlum canım!
Niyə belə insafsızcasına unutmuşam səni...
Mən öz daxilimdə, özümdə nələr gördüm, nələr...
Zavallı ruhum!

Mənəvi aclıq, qida çatışmazlığı, nəvaziş yoxluğu
səni nə hala salıb...
Sən demə, aclıqdan qabırğaları çıxmış, anasına
sığınmış,
halsız bir Efiopiya görüntülü uşağa döndərmişəm
səni...
...Can evimi bu qədər zülmani təsəvvür
etməzdim...

Müdhiş və sonsuz dərəcədə vəhşətli qaranlıq.
Bir əsəb xəstəsinin evinə bənzəyir,
toz-torpaq və lazımsız əşyalarla dolu...
Küçədə nə tapıbsa, yığıb otaqlara...
Gözlərimlə gözlərimə baxdım aynada...
Birdən başa düşdüm ki, Allah da 24 saat gözlərimə
baxır...
ondan savab gözləyir...
Nur vermək üçün...
Allah ruhumda çıraq yandırmaq istəyir...
Baxanları gözlərimlə içərimdən xəbərdar etmək
üçün,
onu öz evinə çevirmək üçün.
Şölələnmiş lampanı görcək şeytan da tez girib onu
söndürür,
Mənim xəyanətkarlığımdan yararlanıb içəri
girərək...

...Aynada gözlərimə baxdım...
Bəbək adlı bacadan işəri düşdüm
Ayağıma nəsə ilişdi, yıxıldım;
özüm-özümü yıxdım...
Çox ağrılı keçdi bu anlar mənim üçün,
Gördüm can evimin qapıları coxdan
sınıb, tökülüb
Bir xaraba ev kimi, kim istəsə girə bilər içəri...
Hər yan zir-zibillə dolu...
Çox pərişan oldum öz halıma
Öz "mən"imə yazığım gəldi...
Bu halıma xəcalət çəkdim, ayıb etdim, özümü danladım...
Çox pis oxuyan uşağa müəlliminin baxdığı kimi özümə baxdım...
Dedim: – Dur ayağa! Qalx!
Sahib çıx öz evinə!
Kişi mirasa belə nankorluq etməz!
Evi belə çirkli saxlamazlar:
əmanətə xəyanət edən onsuz da çoxdur!
Göz yaşınla yu dər-divarı, sil pəncərələri.
Eşiyə çıxart başqalarının malını, özlərinə qaytar...
Xalça-palazı çırp, avadanlığın tozunu al, qurumlara əl at!

Tövbə açarıyla aç su kranını, su hər şeyi paklayır, təmizləyir.
İstiğfar süpürgəsi ilə sil-süpür Allahın sənə əmanət bəxş etdiyi Can evini...
Qapı ağzındakı o bir cüt çarığı da at zibil qutusuna...
Çünki onu şeytan da ayağına keçirib...
...gecəni səhərədək işlədim zavallı evimdə...
Lap yoruldum, əldən düşdüm..
Amma yorğun da olsam çox şad idim...
Çünki hər yan çox təmiz və səliqəli idi artıq...
Divarda "qeyri" heç nə asılmamışdı – Allah, Məhəmməd və Əlidən başqa...
Gözlərimlə bir daha gözlərimə baxdım,
Ayağımın altına yüksəliş nərdivanını qoyub bəbək bacasından geri çıxdım...
Artıq orada işıq görsənirdi, nuraniydi...
Sağ əlimlə üzümə salavat çəkdim,
Peyğəmbər (s) nurundan üzümə nur qatdım,
Nur – nura qovuşdu....
Günəşin şüaları dənizdə bərq vurduğu kimi...

3 mart 2012.


888
69
V
72
46
100
40
3
522
V
72
5
63
3
1000
17
24
1
646
570
365
32
21
435

## Mədinə şəhəri

*(Həzrəti-Zəhranın (s) pak və məsum ruhuna ithaf olunur)*

Ehh... Mədinə şəhəri, Peyğəmbəri isti ağuşunda mehman edən şəhər!

Əhli-beytin əzizi, pənahı, sevinci, qəhəri... Səni xatırlayanda nədənsə kövrəlirəm, qəhərlənirəm həmişə.

Bu xatirələr karvanı xəyallarımı keçmişdəki acılı-şirinli hadisələrə yönəldir mənim.

Mədinə ana! Ey nurlu, şərəfli torpaq, Tanrı sənə həm şərəf, həm də dərdlər verdi bol-bol.

Tanrı sənə necə böyük lütflər etdi, Əşrəful-Ənbiyanın (ə) mübarək qədəmləri toxundu köksünə, Onu əzizlədin, oxşadın, yetirdiyin pak ruzilərdən sərgilədin önündə. Sinəndə Cəbrail Nəbiyə cahanşümul, qəlbi vəhylər gətirdi, Quran yazıldı... Bilal azan söylədi, günahkarları, napakları bağrında yudun, təmizlədin. İlk məscid sənin sinəndə bina edildi, iki qibləli məscid də sənin köksündə ucaldı. Nələr gəldi başına sənin, Xəndəkdə bağrını ovdular, Əbdəvədi öldürdü Mövla, kafərləri səndən qovdular.

Haqla batil qarşı-qarşıya gəlmişdi o gün!

Xoş halına, fərəhli-sevincli anlar yaşadın o gün!

"Tələəl-bədru" deyə-deyə sonsuz intizarla gözləmişdin o sevgilinin gəlişini bir gün, Mədinə!

Sən çox vəfalı şəhərsən, insanlardan çox vəfalısan, zülmətləri yaran səhərsən, ey əziz şəhər, ey dan ulduzum! Amma dərdin də çoxdur bilirəm, dil açıb danışa bilsən hönkürtündən dağlar lərzəyə gələr. Amma səndən rica edirəm, danış mənə o günlərin ağrılı-acılı xatirələrindən, olub-keçənlərdən az da olsa... İnsanların əhdinə vəfasızlığını, haqqı necə unudub danmalarını söylə mənə, sənə nə qədər ağır olsa belə...

Əmisi Abbasla Peyğəmbərə (s) cənazə qüslü verən Əlinin mübarək çöhrəsindən cari olan göz yaşlarından söz aç, adil və mərhəmətli kamal timsalına edilən zülmləri söylə ki, qoy parçalansın daşlaşmış ürəklər, azmış qəlblər...

Evində əsir qalmış, vilayəti bərqərar olmayan Mövlanın sanki "çöp düşmüş gözündən", "sümük qalmış boğazından" moizə et mənə, etibarsız insanların rəftarını xatırlat mənə, Mədinə! 25 illik qüssənin batinini anlat mənə!

Yanmış qapı arxasında mismar yarasından inləyən O məsumə ananın başına gələnləri yadına salanda zar-zar ağlayırsanmı sən də? Sən ağlarsan, inanıram, vəfalı olduğun üçün. Bir qarışqaya belə zülm olunduqda susmayan Əli, bu faciəni görəndə susdu. Əli heç zaman aciz qalmamışdı kimsənin qarşısında. Qurban verdi dininə özünü də, Zəhrasını da... Yarının əllərinə zəncir vurulanda mismar yarasından betər nalə çəkdi, inildədi Zəhra. Bir davranışı ilə yəhudini müsəlman eləmişdi Əli, lakin... vəfasız müsəlmanı imana, qeyrətə gətirə bilmədi!

### Əlinin (ə) zəban halı

Dörd yetim övladla, yetim ümmətlə
Daşları əritdi harayım mənim.
Güntək nur saçırdı hər gecə-gündüz,
Zəhrasız zülmətdir "sarayım" mənim.

Paslı ürəklərə baxıb ah çəkdim,
Dərdlərdən sinəmdə xəzinə tikdim.
Tək-tənha bağlarda xurmalar əkdim,
Kədərlə yüklənib günüm-ayım mənim.

Mədinə torpağı oldu həmdəmim,
Dərdi pıçıltıyla ona söylədim,
Kənardan dövrana baxıb göynədim,
Dəymədi hədəfə ox-payım mənim.

Ey qəmli, dərdli şəhər, necə dözdün bunlara, nə cür tab gətirdin, söyləsənə?! Sən də bir insan kimi danış dərdini, qoy boşalsın ürəyin, yüngülləşsin sinən.

Peyğəmbər (s) bağçasının gülü, "atasının anası" gizli, izsiz-soraqsız, gecə qaranlığında sənin qoynunda əbədi torpağa tapşırıldı, sən bildin Zəhranın məzarının harada olduğunu... Lakin vəfasız ümmət bu işdən qafil qaldı, hələ də bilmir axı niyə, nə üçün gizlidir Fatimənin məzarı? Lakin kim istədi bildi, axtardı anladı səbəbini...

Gecələr dörd yetim balanın: "Ata, anamız haradadır, nə zaman qayıdacaq?" – sualına yalnız hıçqırıqlardan çiyinləri titrəyən, yanaqlarından axan göz əşki ilə cavab verən Əlinin dərdindən yanıb-qovruldunmu, Mədinə? Nə hallara düşdün O məzlum və tənha Mövlanın əhvalını seyr edəndə?! Ehh.. bilirəm çox dərdlisən, çünki dörd imam zəhərləndi

ağuşunda, şəhid edildilər, qoynunda əbədi rahatlıq tapdılar bu dörd imam. Tarixin ən böyük günahlarını törətdilər gözünün qarşısında, sonra da qəlbi qara qatillər həyasızcasına illərlə gəzib-dolaşdılar küçələrində. Onsuz da dərdli ürəyinə bir daha zəhərli xəncər sapladılar sənin. Neyinin naləsi çoxaldı, sazının fəryadı artdı. Nə etməli... bu da sənə yazılmış qəzavü-qədər imiş. Döz, dözməli və gözləməlisən ümidlə yollara baxa-baxa, əzizim! Hər acı ayrılığın sonunda bir şirin vüsal məqamı var. Sən bilirsən kimi gözləməlisən, çünki o ismət və təharət Xanədanını sən çoxlarından yaxşı tanıyırsan. Onların Fərəci sənə bəllidir. Bizim də gözlərimiz səninkitək yollara dikilib Mədinə, gözləyirik! Əziz, ismətli, namuslu Mədinə şəhəri! Bir az da gözlə, gözlərindən qəm, kədər yaşlarını siləcək həzrəti Sahibəzzamanı (ə)! İnşallah, bundan artıq intizarda qoymaz cümləmizi. Sənli-bizli bir az da dözək, mütləq gələcək, mütləq... tezliklə!

# Qaytarın mənə günəşimi

*(mənsur şeir)*

Qaytarın mənə günəşimi!..

O günəş ki, xatirəmdə işıqlı, nurlu şəfəqləri ilə yaşayır...

Qaytarın mənə günəşimi: o günəş ki, uşaqlıqda səhər çağı pəncərədən üzümə düşərdi, məni isidər, yuxudan oyadardı.

Qaytarın mənə günəşimi: o günəş ki, meyvələri yetişdirər, gül-çiçəyin ətrini çoxaldardı.

Quzuların ətinin tamını artırar, nənələrin dərisini buğdayı edər, babaların çöhrəsini misə döndərərdi.

Qaytarın mənə günəşimi: o günəş ki, şəhər səmasının çirkli havasında görsəndiyi kimi bomboz deyildi, parlaq idi.

Qaytarın mənə günəşimi: o günəş ki, uşaq rəsmlərində gülüb-sevinən uşaqların başı üzərində nur saçırdı, özü də gülümsəyirdi yer əhlinə!

Qaytarın mənə günəşimi: halal əllərin becərdiyi halal ruzini yetişdirən günəşi...

Qeyrətli kişilərin alınlarından həyalı üzlərinə axan tər damlalarında əks olunan və ana qəlbitək saf və isti günəşimi...

Qaytarın mənə günəşimi: o günəş ki, mənim ilham səbəbkarım, sevinc həmdəmim, həmdərdim idi, qüssəni aparan rənglərim, şadlıq zərrələrini gətirən akkordlarım idi...

Qaytarın mənə günəşimi: irsimin əlimdən alınmadığı zamanlarda nur saçan gözəli, şirin xatirələrimin işığını, feyzini...

Qaytarın mənə günəşimi: o günəş ki, yaxşıların üzərinə daha cazibədar nur saçardı, oxşayardı...

Qaytarın mənə günəşimi: yoxsa özüm rənglərlə günəş çəkəcəm, özüm boyayacam – arzularımın rəngində. Hər yeri olmasa da, ən azından öz otağımı işıqlandıracaq, fikrimi aydınladıb xəyallarıma qanad verəcək o günəş...

Mən öz günəşimi çəkəcəm, ən şux rənglərlə... Səttarın, Van Qoqun işlətdiyi sarı rəngilə, o, məni isindirəcək, ətrafıma nur saçıb xoşbəxt edəcək. Mənim təki kim itirdiyi günəşi tapmaq istəyirsə, dəvət edəcəm, gəlsin mənim tablomun qarşısına, həm doyunca tamaşa eləsin, isinsin, həm də öz ruhunu nura boyasın!..

## Kimlər yaşayır bu şəhərdə...

*(mənsur şeir)*

...Kimlər yaşayır bu şəhərdə?

Sakinlərini əyri-üyrü yollara əyri-üyrü yollarımı saldı görəsən?!

...Kimlər yaşayır bu şəhərdə?

Kasıbının qarnı aclıqdan, varlısının gözü aclıqdan doymur...

Kasıb "gözlərini" doyurmaq üçün varlının mülklərinə baxır, çənəsi onların pullarını "çeynəmək"dən yorulmur... yenə də çeynəyir...

Varlının tamahkar gözü isə kosmosdakı "qara dəlik" kimidir, hər şeyi özünə çəkir, udur, amma nə olsun doymur ki, doymur...

...Kimlər yaşayır bu şəhərdə?

Haqqı yeyilənin sayı-hesabı yox, haqq yeyənin isə abır-həyası heç yox... Haqq deyəni barmaqla say, haqqı dananı dəryazla biç...

Paranın ifrat dərəcədə artması maşınların qiymətini və "sürətini" artırıb bu şəhərdə... Taksilər isə hər yanından ötənə müştəri ümidi ilə baxır...

Burada incəsənətin bəzi nümayəndələri toxdur, bəziləri aclıqdan "tox"...

Toyları çoxdur bu şəhərin, ona görə də müğənnisi razıdır gərdişi-dövrandan...

Lakin hamısı yox... Şairləri qəriblərin qəribidir bu şəhərin... Sözə dəyər verən hanı?

Bu şəhərdə rəssamlar köhnə, lakin bahalı xəncər kimi öz alıcısını gözləyir... Çoxunun dəyəri bilinmir deyə küskündür həyata, içməklə unutmaq istəyir dərdini. Sərxoşluğu reallıqdan çıxış yolu görürlər onlar, amma nə vaxta qədər.

...Kimlər yaşayır bu şəhərdə?..

"Girəyənlər" zümrəsi təşəkkül tapıb burada. Onlar hər qapıdan girə bilirlər, çünki vücudlarını hər "qapı"ya görə tənzimləməyi bacarırlar.

Onları "yekə"lər sevməsələr də xoşlayırlar, "poza"sına görə...

Üzlərdən gülüşü aparandı bu şəhər... Üzləri qara edəndir bura, kimini övladı, xanımı, borclu olduğu adamın yanında, bəzisini də nişanlısının qarşısında... Bu şəhərin palitrasında tünd rənglər üstünlük təşkil edir, çox yerdə sarı yerinə boz-qara daha çox işlənir "tablolarında"...

Şair kitabını çap etdirmək üçün kimlərə ağız açmır, onların bəzisi o gedəndən sonra arxasınca rişxəndlə gülür, evdə isə şairin arvadı pul gözləyir...

...Şairin qaynanası öz qızına: – Ərə getməyə kişi başına qəhət idi? – deyir.

...Kimlər yaşayır bu şəhərdə?

Sarayların hasarlarının yüksəkliyi yıxılanı "murdar" edəcək qədər hündürdür. Görəsən onların sakinləri niyə belə ciddi cəhdlə xalqdan gizlənirlər? Onların gizlətdiyi, nə zamana qədər gizlin qalacaq? Böyürdən baxandan qorunur, "Yuxarıdan" baxanı unudurlar. Yuxarıdan baxan həm görür, həm də yazır.

...Kimlər yaşayır bu şəhərdə?

Saqqalın uzanması, şalvarın gödəlməsi ilə müşayiət olunur, dinə dən üçün gələnlər günbəgün çoxalır...

– Sən batilsən, sən müşriksən – ittihamını eşidən biçarə haqq təriqinin yolçusu özünü axirət mükafatının təskinliyi ilə səbrə dəvət edir...

Dini bir qumaş kimi bölənlərin dərzi masasında orada tikilən riya paltarlarını seyr etməkdən də dərdli bir mənzərə varmı görəsən?..

İşğal olunmuş torpaqların qüssəsi də bir yandan...

İş elə düyünə düşüb ki, açmaq istəyəni yaxın buraxmırlar, bu halın davam etməsi bəzilərini çox məmnun edir göründüyü kimi...

...Kimlər yaşayır bu şəhərdə?

Zavallı tələbə gələcəkdə kim olacağını, harada işləyəcəyini bilməyə-bilməyə yenə də oxuyur... “Ya pulun, ya dayın” reallığı onun gənc ruhunu buludlara bürüsə də...

...Kimlər ölür bu şəhərdə?

Əcəli-müəlləqdən ölən daha çoxdur burada... Dirinin ölməsi səssizcə olur, “ölünün” ölməsi hadisə...

Ölən adam kasıbsa, varislərini də özüylə öldürür... Üzərində gəzdiyi vətən torpağında dəfn olunmağa pulla ona güclə yer tapırlar...

Kimlər ölür bu şəhərdə... Dirisimi çox ölür, ölüsümü? Diriləsimi çoxdur, öləsimi? Ölüləşmə bir prosesə çevrilib burada! Yeriyən ölülər zümrəsi günbəgün artır...

...Yaxşı, bu qədər bəsdir... Qəmli notlarla öz ruhumu da sıxdım, oxucularımın canını da... Onsuz da hərənin öz dərdi özünə bəs edir, bir qədər də ürəkaçan söz danış – dedim özümə!

Qurani-Kərimdə Allah buyurub: “Hər çətinliklə yanaşı bir asanlıq olar”, yəni pis günün ömrü o qədər azdır ki, asanlıq onunla yanaşı təsəvvür olunur...

Ümidini üzmə, nikbin ol, yaxşı düşün, pozitiv danış. Hər tufandan sonra bir sakitlik, çaxan şimşək və yağan doludan sonra göy qurşaqlı, günəşli səma azmı görübsən!

Kimlər yaşayır bu şəhərdə... Onlara de ki, irəliyə ümidlə baxsınlar. Allah unutmayıb onları. De – Vallah, hər şey yaxşı olacaq, Billah hər şey yaxşı olacaq!!!

# Mündəricat


QOVUŞDUQ "CƏNNƏTİ-RİZVANƏ..." ....... 4
SƏNSİZ ....... 11
BAŞ ƏY ....... 13
RƏSULİ-ƏKRƏMƏ (S) XİTABƏN ....... 16
HAQQ YOLU ƏLİNİN (Ə) İZİNDƏ AXTAR! ....... 18
"BA" HƏRFİNİN NÖQTƏSİNDƏN ÖP ....... 20
O KİMDİR? ....... 22
ƏLİ (Ə) ....... 28
HƏZRƏT ƏBU TALİB AĞA ....... 29
ƏLİDİR (Ə) ....... 31
YA MEHDİ ....... 34
İMAM RZANIN (Ə) ZİYARƏTİNDƏ ....... 36
AŞURA ....... 40
MÜQƏDDƏS 7-LƏR ....... 43
ANA ....... 44
ATALAR ....... 47
ATA DEYİLMİ ....... 48
QIZIM ZƏHRAYA ....... 52
CAN ƏSMA ....... 54
GÖZ İÇİNDƏDİR ....... 57
DİL VƏ ƏZALARIN SÖHBƏTİ ....... 59
SEYİD ABBASIN ....... 62
ÇIXART ÜZÜNDƏN ....... 64
ƏLİNDƏ ....... 66
QƏMSİZ ....... 68

DÜNYA İLƏ İNSANIN DEYİŞMƏSİ........................................................70
BƏLALAR ........................................................................................77
ÖLÜMLƏR ........................................................................................79
DEDİLƏR ........................................................................................80
EYLƏMİŞƏM MƏN ..........................................................................82
BALAMIN XİLAS YOLU ..................................................................83
YAĞLICADA QƏRİB MƏZAR VAR ..................................................85
ÜRƏKLƏ SÖHBƏT ...........................................................................90
TİFLİS ..............................................................................................91
BORÇALI ........................................................................................95
DÜNYA.............................................................................................98
OLARSAN ......................................................................................100
QARDAŞ.........................................................................................101
SEVGİ .............................................................................................102
DEYİLMİ ........................................................................................103
BAŞLANIR......................................................................................105
EDİR...............................................................................................106
TÖVBƏ QAPISI ..............................................................................107
ƏLİDİR, ƏLİ (Ə) ............................................................................109
NEYNİRƏM ....................................................................................111
BAX................................................................................................113
YANAR............................................................................................115
QARƏ İMİŞ ....................................................................................116
UZAT ..............................................................................................117
GÖRƏ.............................................................................................119
BƏS NƏ EDİM ...............................................................................120
EYLƏDİN .......................................................................................121
VAR................................................................................................122

GƏL ....................................................................................................123
AĞLATDILAR ....................................................................................125
SƏN ....................................................................................................127
MÖVLASINA.........................................................................................128
ƏVVƏL ................................................................................................129
ŞEİR ....................................................................................................131
GƏLDİ..................................................................................................132
İSTƏ TƏBİBLƏR ŞAHINDAN ..........................................................133
“LAL”IN DİLİNİ ANLAYANI AXTARIRAM........................................135
HƏDİS DƏRSİ.....................................................................................138
ÜRƏK...................................................................................................142
DÜŞÜNCƏLƏR... ...............................................................................145
MƏN.....................................................................................................149
DÜNYA.................................................................................................150
DAŞLAR ..............................................................................................153
MƏNALI SÖZ ......................................................................................154
VƏTƏNƏ DÖNMƏK..............................................................................155
TORPAQ ..............................................................................................157
FATİMƏNİN (Ə) GÜLLƏRİ.................................................................162
QARTAL YUVASI ................................................................................168
TÖVBƏDƏN QABAQ ...........................................................................172
MƏDİNƏ ŞƏHƏRİ ...............................................................................177
QAYTARIN MƏNƏ GÜNƏŞİMİ ..........................................................182
KİMLƏR YAŞAYIR BU ŞƏHƏRDƏ... ................................................184

Rizvan İsmayıl

*(Rizvan İsaxan oğlu İsmayılov)*

# Elmi-kəlam qapısı

Capa imzalanmışdır: 05.02.2018

Tiraj: 500

Tbilisi – 2018